AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
A.A.BAKIXANOV adına TARİX İNSTİTUTU

*Əlyazması hüququnda*

AYTAC YAŞAR QIZI ŞİRƏLİYEVA

# ƏBU MƏNSUR ƏL-HÜSEYN İBN MƏHƏMMƏD ƏS-SƏ`ƏLİBİNİN "FARS ŞAHLARI VƏ ONLARIN HƏYATI HAQQINDA SEÇİLMİŞ MƏLUMATLAR" ("ĞURAR ƏXBAR MULUK ƏL-FURS VA SİYARİHİM") ƏSƏRİ AZƏRBAYCANIN ERKƏN ORTA ƏSRLƏR TARİXİNİN MƏNBƏYİ KİMİ

**İxtisas: 5503.02-Vətən tarixi**

**Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

# A V T O R E F E R A T I

**BAKI-2017**

*Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun "Orta əsrlər tarixi" şöbəsində yerinə yetirilmişdir.*

**Elmi rəhbər:**
AMEA-nın həqiqi üzvü **N.Ç.Axundova**

**Rəsmi opponentlər:**
Tarix üzrə elmlər doktoru, professor **Ş.F.Fərzəliyev**
Tarix üzrə fəlsəfə doktoru, dosent **B.Ş.Şabiyev**

**Aparıcı təşkilat: Azərbaycan Dövlət Pedaqoji Universitetinin "Azərbaycan tarixi" kafedrası**

Müdafiə Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun nəzdində 5503.02 – Vətən tarixi, 5502.01 – Ümumi tarix, 5507.01 -"Beynəlxalq münasibətlər tarixi" və 5509.01 – Tarixşünaslıq, mənbəşünaslıq və tarixi tədqiqat üsulları ixtisasları üzrə tarix üzrə elmlər doktoru və tarix üzrə fəlsəfə doktoru elmi dərəcələri almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən D.01.161 saylı Dissertasiya Şurasının "_30__" ___06______2017-ci il tarixli iclasında saat ____-da keçiriləcəkdir.

**Ünvan:** Az.1143, Bakı şəhəri, H.Cavid prospekti, 115

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyasının A.A.Bakıxanov adına Tarix İnstitutunun Elmi Arxivində tanış olmaq olar.

Avtoreferat "_____"___________2017-ci ildə göndərilmişdir.

**Dissertasiya Şurasının**
**elmi katibi, tarix üzrə fəlsəfə**
**doktoru** **C.Ə.Bəhramov**

# I. DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Orta əsrlər dövrü Azərbaycan xalqının tarixində özünəməxsus və mühüm yer tutur. Azərbaycanın dövlətçilik tarixində bənzərsiz mövqeyi olan Atropatena və Albaniya dövlətlərinin varlığı məhz bu dövrlə bağlıdır. Bununla yanaşı həmin dövr Vətən tarixşünaslığında çox ziddiyyətli, mürəkkəb və zəif öyrənilmiş dövrüdür. Azərbaycan tarixinin bu dövrü ilə bağlı müasir milli tarix elmində də çox ziddiyyətli, qeyri-obyektiv, yanlış mülahizələr və müddəalar mövcuddur. Bu hal orta əsr mənbələrində hadisələrin, siyasi, ictimai, iqtisadi və ideoloji mənafelərə, şəraitə uyğun olaraq, birtərəfli və subyektiv şəkildə təsvir olunması ilə bağlıdır. Dövrün mənbələrində Azərbaycan əhalisinin etnik tərkibi, dili, yerli və gəlmə əhali olma problemi, bölgədə baş vermiş miqrasiya məsələləri tarixi gerçəkliklərdən nəzərəçarpacaq dərəcədə fərqli şəkildə əks etdirilmişdir. Orta əsrlərin ərəbdilli və farsdilli mənbələrində mövcud olan müəyyən qüsurlara baxmayaraq, bu yazılı qaynaqların Vətən tarixinin orta əsrlər dövrünün öyrənilməsində əhəmiyyətini danmaq qeyri-mümkündür.

Erkən orta əsrlərdə Azərbaycanda baş vermiş etnik, siyasi və mədəni proseslər hərtərəfli, qərəzsiz şəkildə, elmi faktlara əsasən araşdırılmalı, tədqiqat prosesində əvvəlcədən müəyyən edilmiş "konsepsiyalardan", müddəalardan imtina olunmalıdır.

Əbu Mənsur əl-Hüseyn ibn Məhəmməd əs-Sə`əlibinin (XI əsr) "Ğurar əxbar muluk əl-furs va siyarihim" ("Fars şahları və onların həyatı haqqında seçilmiş məlumatlar")[1] əsəri Azərbaycan tarixinin erkən orta əsrlər dövrünün tədqiq olunmasında çox əhəmiyyətli mənbələrdən biridir. Ərəbdilli mənbələr sırasına aid olan bu əsərdə Azərbaycan Atropatena və Albaniya dövlətlərinin ictimai, siyasi, iqtisadi, dini-ideoloji həyatı, onların qonşu dövlətlərlə münasibətləri haqqında maraqlı məlumatlar vardır. Azərbaycan milli tarix elmində həmin əsər ilk dəfə olaraq əsaslı, kompleks tədqiqata cəlb olunur, elmi dövriyyəyə daxil edilir. Vətən tarixinin erkən orta əsrlər dövrünü əhatə edən bu mənbənin tədqiqi zərurəti də məhz bununla bağlıdır.

**Tədqiqatın xronoloji çərçivəsi.** Təqdim olunan tədqiqat işinin xronoloji çərçivəsinə gəldikdə, dissertasiya Azərbaycan tarixinin erkən orta əsrlər dövrünü (III-VII əsrləri) əhatə edir.

---

[1] Zotenberg H. Histoire des Rois des Perses par Abou Mansour 'Abd Al-Malik Ibn Mohammad Ibn Ismail Al-Tha'alibi. Imprimerie nationale, Paris: 1900, p. 816.

**Mövzunun öyrənilmə səviyyəsi.** Əbu Mənsur əl-Hüseyn ibn Məhəmməd ibn İsmayıl Əs-Sə`əlibinin غرر اخبار ملوك الفرس و سيرهم (Ğurar əxbar muluk əl-furs va siyarihim) ("Fars şahları və onların həyatı haqqında seçilmiş məlumatlar") əsəri əcnəbi tarixçilərin diqqətini az cəlb etmişdir. Ərəb alimləri (Umar Rıza Kahhala, Hanna əl-Faxuri), Avropa şərqşünasları – (K.Brokkelman, De Slen), rus tədqiqatçıları V.V.Bartold[1], A.A.Krımski[2] və İ.Y.Kraçkovski[3], Orta (Mərkəzi) Asiya alimləri İ.Abdullayev[4], F.İ.Usmanov[5], A.T.Həbibullayev[6], T.Mardoni[7], S.Voxidov[8], İran tarixçiləri Ə.Abdullahi və Q.Rudgər[9], Azərbaycan şərqşünası L.M.Hüseynova[10] Əbu Mənsur Əs-Sə`əlibinin elmi, ədəbi fəaliyyətinin və əsərlərinin ayrı-ayrı tərəflərini öyrənmiş, əsərlər haqqında müəyyən məlumatlar verməklə kifayətlənmişlər.

Görkəmli Azərbaycan şərqşünası, akademik Z.M.Bünyadovun tədqiqat əsərlərində də bu ərəbdilli mənbə haqqında məlumatlar vardır[11].

---

1 Бартольд В.В. Мусульманский мир / Бартольд В.В. Сочинения.В 9-ти томах. Т. VI. Москва: Наука, 1969, с. 207-297.; Yenə onun: Бартольд В.В. Хазары / Бартольд В.В. Сочинения.В 9-ти томах. Т. V. Москва: Наука, 1968, с. 597-601.

2 Крымский А.Е. История арабов и арабской литературы, светской и духовной (Корана, фикха, сунны и пр.). В 3 частях. Ч. I. Москва: Типография Я.А.Ниренберга, 1911.; Yenə onun: Крымский А.Е. История арабов, их халифат, их дальнейшие судьбы и краткий очерк арабской литературы. Москва: Издание Д.В. Солодова и В.Э. Павловского, 1903.; Yenə onun: Крымский А.Е. Страницы из истории северного или кавказского Азербайджана (классической Албании). Шеки / Памяти академика Н.Я. Марра (1864-1934). Москва-Ленинград: Изд-во АН СССР,1938, с. 369-384.

3 Крачковский И.Ю. Древнейший арабский документ из Средней Азии / Избранные сочинения: В 6-ти томах. Т. I. М.-Л.: Изд-во АН СССР, 1955, с. 182-212.; Yenə onun: Крачковский И.Ю. Вино в поэзии ал-Ахталя //Избранные сочинения. Т.2.Москва-Ленинград: Изд-во АН СССР 1956, с.417-432.; Yenə onun: Крачковский И.Ю. Сасанидская чаша в стихах Абу Нуваса //Избранные сочинения. Т.2. Ленинград: Изд-во АН СССР 1956, с.336-350.; Yenə onun: Крачковский И.Ю. Общие соображения о плане истории арабской литературы //Избранные сочинения. Т.2. Москва-Ленинград: Изд-во АН СССР, 1956, с.563-574.

4 Абдуллаев И. Поэзия на арабском языке в средней Азии и Хорасане X – начала XI вв. Ташкент: Фан, 1984.

5 Усмонов Ф.И. Абу Мансур ас-Саалиби и его «Татиммат ал-йатима» как источник по арабоязычной персидско-таджикской поэзии X века. Душанбе : АН Республики Таджикистан, 2011.

6 Хабибуллаев А.Т. Антология «Ал-и'джаз ва-л-иджаз» ас-Са`алиби как литературный памятник. Ташкент: АНРУ Институт рукописей, 1994.

7 Мардони Т.Н. Влияние арабской поэзии на творчество персидско-таджикских поэтов XI-XII вв. Автореферат докторской диссертации. Душанбе: 2006.

8 Вохидов С. Арабские и арабоязычные источники «Лубаб ал-албаб» Мухаммада Ауфи //Проблемы арабской классической и современной литератур. Душанбе: 1989.

9 عبداللهی.ع و قنبارلی.ر.غرر السیر' بررسی درباره نام اصلی و مولف آن. تاریخ و تمدن اسلام' سال دهم' شماره نوزدهم' بهار و تابستان.تهران. ۱۳۹۳ه. ش.ص.۱۲۰-۱۰۵

10 Гусейнова Л.М. Антология Абу Мансура ас-Са'алиби «Йатимат ад-дахр» как источник по изучению арабоязычной азербайджанской и иранской поэзии X-XI вв. Автореферат к диссертации. Баку: 2015.

11 Буниятов З.М. Обзор источников по истории Азербайджана. Источники арабские. Баку: Изд-во АН АзССР, 1964.

Mövzu araşdırılarkən Azərbaycan tarixçilərinin, bir sıra xarici ölkə tədqiqatçılarının Azərbaycan xalqının erkən orta əsrlər tarixi ilə bağlı olan tədqiqat əsərləri elmi zəmin rolunu oynayır. Həmin tədqiqat əsərləri mövzunun ətraflı araşdırılması üçün əlverişli imkan yaradır.

Problemin tədqiqində T.M.Məmmədovun[1], F.C.Məmmədovanın[2] əsərlərinin də əhəmiyyətini qeyd etmək lazımdır. Bu tədqiqat əsərlərində antik Alban dövlətinin ictimai-siyasi vəziyyəti, şəhərləri, ticarət əlaqələri, dini həyatı və dövlətin xarici əlaqələri ətraflı şəkildə işıqlandırılmışdır.

Tədqiqat zamanı antik Albaniyanın etnosiyasi mənzərəsi, alban tayfalarının etnik mənsubiyyəti, bu tayfaların məskunlaşma arealı haqqında qiymətli tədqiqatlar aparmış K.H.Əliyevin əsərindən[3] də istifadə olunmuşdur.

Tədqiqatın gedişində A.H.Fazilinin Atropatenanın siyasi coğrafiyasına, ictimai-siyasi, iqtisadi vəziyyətinə, dini həyatına, baş vermiş sosial hərəkatlara həsr olunmuş çox dəyərli əsərlərindən[4] faydalanmışıq.

S.Y.Qasımovanın Atropatenanın III-VII əsrlər tarixinə həsr olunmuş əsərləri[5] müqayisəli təhlillər zamanı əhəmiyyətli hesab oluna bilər.

Ərəb fəthləri ərəfəsində Azərbaycanın ictimai-siyasi həyatının təhlilində Z.M.Bünyadovun əsərlərinin böyük əhəmiyyəti vardır. O, VII əsrdə Azərbaycan Atropatena və Albaniya dövlətlərində baş vermiş siyasi hadisələri çoxsaylı mənbələr əsasında təhlil etmiş, dövrün tarixi

---

[1] Məmmədov T.M. Qafqaz Albaniyası ilk orta əsrlərdə. Bakı: Təhsil, 2006.; Yenə onun: Мамедов Т.М. О летописи Кавказской Албании / Вопросы истории Азербайджана. Баку: Изд-во Академии наук, 1966, с.47-52.; Yenə onun: Мамедов Т.М. К вопросу об этническом составе Азербайджана IV-VII вв. // ДАН Азерб.ССР, 1975, Т.XXXI, №9, с.58-61.; Yenə onun: Мамедов Т.М. Албания и Атропатена по древнеармянским источникам (IV – VII вв.). Баку: Элм, 1977.; Yenə onun: Мамедов Т.М. Кавказская Албания в IV – VII вв. Баку: Маариф, 1993.

[2] Məmmədova F.C. Azərbaycanın (Albaniyanın) siyasi tarixi və tarixi coğrafiyası). Bakı: ADN, 1993.; Yenə onun: Мамедова Ф. Дж. О некоторых вопросах исторической географии Албании I-VIII вв. / В кн. Историческая география Азербайджана. Баку: Элм, 1987, с.7-45.; Yenə onun: Мамедова Ф.Дж. К вопросу об албанском (Кавказском) этносе // Изв. АН Азерб. ССР, сер. ИФП, 1989, №3, с. 108-117.; Yenə onun: Мамедова Ф.Дж. Кавказская Албания и албаны. Баку: [Б.и.] 2005.

[3] Алиев К.Г. Кавказская Албания (I в. до н.э. - I в. н.э.). Баку: Элм, 1974.

[4] Fazili A. Atropatena e.ə. IV – e.VII əsri. Bakı: Azərbaycan EA Tarix İnstitutu, 1992.; Yenə onun: Fazili A. Azərbaycanın qədim və orta əsrlər tarixi İran tarixşünaslığında (III-VII əsrlər). Bakı: Elm, 1984.

[5] Касумова С.Ю. Азербайджан в III – VII вв. (этно-культурная и социально-экономическая история). Баку: Элм, 1993.; Yenə onun: Касумова С.Ю. О христианстве в средневековом Азербайджане // Кавказ и глобализация. Журнал социально-политических и экономических исследований.Т. IV.Вып. 3-4. Баку: 2010, с. 176-183.; Yenə onun: Касумова С.Ю. Среднеперсидская эпиграфика Кавказской Албании (Дербент). Баку: Элм, 1994.; Yenə onun: Касумова С.Ю. Христианство в Азербайджане в раннем средневековье. Баку: MasterPrint&Publishing, 2005.

hadisələrinə obyektiv qiymət vermiş, bununla tədqiqatımızın doğru istiqamətdə aparılması üçün əlverişli imkan yaratmışdır[1].

Mövzu tədqiq olunarkən VII əsrdə Azərbaycanda baş vermiş siyasi və ictimai-iqtisadi hadisələri, şəhərlər haqqında ərəb mənbələrinin verdiyi məlumatları araşdıraraq dövrün konkret mənzərəsini təhlil etmiş N.M.Vəlixanlının əsərlərinə müraciət olunmuşdur[2].

Müqayisələr aparılarkən A.A.Bakıxanovun[3], S.B.Aşurbəylinin[4], A.Y.Suleymaninin[5], N.Ç.Axundovanın[6], R.Ə.Ağayevin[7], B.Şəfiyevin[8], F.M.Əsədovun[9], Z.C.Məmmədovun[10], Q.C.Cəbiyevin[11], Q.M.Əhmədovun[12], Y.M.Mahmudovun[13], V.Z.Piriyevin[14], R.Məmmədovun[15], X.S.Qasımovun[16], Z.G.Məmmədovanın[17],

---

[1] Bünyadov Z. Azərbaycan VII-IX əsrlərdə. Bakı: Şərq-Qərb, 2007.; Yenə onun: Буниятов З.М. Обзор источников по истории Азербайджана. Источники арабские. Баку: Изд-во АН АзССР, 1964.; Yenə onun: Буниятов З.М. О деятельности католикоса Албании Виро (596-630) /Ближний и Средний Восток. Сборник статей. Москва: Изд-во восточной литературы, 1962, с. 15-20.; Yenə onun: Буниятов З.М. Из истории Кавказской Албании VII-VIII вв. / В кн.: Вопросы истории Кавказской Албании. Баку: Элм, 1962, с.149-165.

[2] Vəlixanlı N.M. Ərəb Xilafəti və Azərbaycan. Bakı: Azərnəşr, 1993.; Yenə onun: Велиханлы Н.М. От арабского нашествия до монгольского // İrs, 2007, №3, с.18-20.; Yenə onun: Велиханова Н.М. Изменение исторической географии Азербайджана в результате арабского завоевания / Историческая география Азербайджана / Под ред. З.М. Буниятова. Баку: Элм, 1987, с. 46-87.

[3] Бакиханов А.А. Гюлистани – Ирам.Редакция, комментарии и указатели З.М. Буниятова. Баку: Элм, 1991.

[4] Aşurbəyli S. Şirvanşahlar dövləti. Bakı: Elm, 1992.

[5] Сулеймани А.Ю. Маздакитское движение и вопросы семьи. Автореферат к диссертации. Баку: 1963.

[6] Ахундова Н.Ч. Политические, экономические и религиозные последствия арабских завоеваний на Кавказе // Кавказ и глобализация. Журнал социально-политических и экономических исследований.Том 4.Вып. 3-4, Швеция: 2010, с. 121-131.

[7] Ağayev R.Ə. İbn Hövqəlin "Kitab surət əl-ard" əsəri xəzərlər haqqında / Tarix və onun problemləri, № 2, 2014, s. 26-35.; Yenə onun: Ağayev R.Ə. Səlcuqlaraqədərki dövrdə Azərbaycanda türklərin varlığına dair faktlar /Tarix və onunproblemləri, № 2, s. 28-34.

[8] ŞəfiyevB.C. Zərdüşt, Avesta, Azərbaycan. Bakı:Elm,1996.

[9] Асадов Ф.М. Арабские источники о тюрках в раннее средневековье. Баку: Элм, 1993.

[10] Məmmədov Z.C. Azərbaycan fəlsəfəsi tarixi. Bakı: Şərq-Qərb, 2006.

[11] Cəbiyev Q.C. Girdıman tarixi (IV-IX əsrlər). Bakı: Şərq-Qərb, 2010.

[12] Əhmədov Q.M. Orta əsrlər Beyləqan şəhəri. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1997.

[13] Mahmudov Y.M. Azərbaycan: qısa dövlətçilik tarixi. Bakı: Təhsil, 2005.; Yenə onun: Mahmudov Y.M. Real tarix: "Böyük Ermənistan uydurması". Bakı: Təhsil, 2005.

[14] Orucov A.Ş. Şimal-şərqi Azərbaycan ilk orta əsrlərdə. Tarix elm. dok. avtoref. Bakı: 1995.

[15] Məmmədov R. Naxçıvan şəhərinin qədim və ilk orta əsrlər tarixindən /ATMƏ, V. Bakı: 1962.; Yenə onun: Məmmədov R. Naxçıvan şəhərinin tarixi oçerki (orta əsrlər). Bakı: Elm,1977.

[16] Qasımov X.S. Orta əsrlərdə Azərbaycan mədəniyyəti. Bakı: "Aspoliqraf", 2008.

[17] Məmmədova Z.G. Şəmkir qalası və Azərbaycanın erkən dövr qala - şəhərləri. Şəmkir: arxeoloji irsi, tarixi və memarlığı.Birinci respublika elmi-praktik konfransının materialları. 28-29 noyabr 2007-ci il. Şəmkir: 2007, s.231-233.

Q.Ə.Hacıyevin[1], M.C.Xəlilovun[2], F.V.Qədirovun[3], N.H.Quliyevanın[4], M.X.Şəriflinin[5], Ə.Ə.Əlizadənin[6], İ.A.Babayevin[7], Q.A.Qeybullayevin[8], Y.R.Cəfərovun[9], Q.A.Ciddinin[10], V.Kərimovun[11], R.Ə.Hüseynovun[12] əsərlərinə də müraciət edilmişdir.

Tədqiqat prosesində Türkiyə Cümhuriyyəti tarixçilərinin əsərlərinə də müraciət olunmuş, onların problemə münasibəti işıqlandırılmışdır. Türkiyə tarixçiləri A.Altıngök[13], S.O.Kurulay[14], C.Mürsəlov[15], G.Bahadır[16], Y.Karadeniz[17], S.Konuk[18], M.Tezcan, D.A.Akbulut erkən orta əsrlər dövrü ilə bağlı olan maraqlı tədqiqat əsərləri yazmış, nəşr etdirmişlər.

---

[1] Hacıyev Q.Ə. Bərdə şəhərinin tarixi (b.e.ə.III əsr – b.e.XVIII əsri). Bakı: "T" Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2000.

[2] Xəlilov M.C. Albaniyanın ilk orta əsr şəhər və qalalarının lokallaşdırılması problemi// Azərbaycanın antik və ilk orta əsr arxeologiyası problemləri. Bakı: Nafta-Press, 2006, s.72-87.

[3] Qədirov F.V. Azərbaycanın şimal müdafiə istehkamları. Bakı: Elm, 1984.

[4] Quliyeva N.H. Azərbaycan tatlarının ailə məişəti və mənəvi mədəniyyəti (tarixi-etnoqrafik tədqiqat). Tarix elm. nam. avtoref. Bakı: 1996.

[5] Şərifli M.X. Eyniadlı orta əsr Azərbaycan şəhər və qalaları // Azərb.SSR EA Məruzələri. XVIII c. 1962, № 3, s.89-93.; yenə onun: Şərifli M.X. Şirvanşahlığın Lizanşahlıq ilə birləşdirilməsi // Azərb. EA məruzələri.XXI c. 1966, № 6, s.603-607.; Yenə onun: Şərifli M.X. IX əsrin ikinci yarısı - XI əsrdə Azərbaycan feodal dövlətləri. Bakı: Elm, 1978.

[6] Али-заде А.А. Некоторые сведения о Ширване (до начала XIII в.) // Изв.АН Азерб.ССР, сер, общ. наук, 1947, №12, с. 3-22.; Yenə onun: Али-заде А. Лагич-поселок ремесленников. Автореф. канд. ист. наук. Тбилиси: Мецниереба, 1983.

[7] Бабаев И.А. Города Кавказской Албании в IV в. до н.э. - III в н.э. Баку: Элм, 1990.

[8] Гейбуллаев Г.А. К этногенезу азербайджанцев (историко- тнографическое исследование): в 2 томах. Т. I. Баку: Элм, 1991.; Yenə onun: Гейбуллаев Г.А. К этногенезу азербайджанцев / К проблеме этногенеза азербайджанского народа / Отв. за выпуск М.А. Исмаилов. Баку: Элм, 1984, с. 102-151.

[9] Джафаров Ю.Р. Гунны и Азербайджан. Баку: Элм, 1985.

[10] Джидди Г.А. Средневековый город Шемаха (IV-XVII вв.)/Историко-археологическое исследование. Баку: Элм, 1981.

[11] Керимов В. Оборонительные сооружения Азербайджана. Огуз. Баку: Элм, 1998,

[12] Гусейнов Р.А. О тюрках IV-VII вв. в зоне Кавказской Албании / Вопросы истории Кавказской Албании (Сборник статей) / Под ред. И.Алиева. Баку: Изд-во АНАз.ССР, 1962, с. 181-192.; Yenə onun: Гусейнов Р.А. Сирийские источники XII-XIII вв. об Азербайджане. Баку: Изд-во АН Аз.ССР, 1960.

[13] Altıngök A. IV-VIII. Yüzyıllararası Sasaniler dönemi Türk-Fars ilişkileri. Elazigh, 2007.; Yenə onun: Bahadır G. Anadolu'da Bizans-Sasani etkileşimi (IV.– VII. Yüzyıllar). Turkish studies.Vol 6, 2011, s.685-703.

[14] Kurulay S.O.Hudûd el-âlem' e göre 10.asırda türk boyları. İstanbul: 2007.

[15] Mürselov C.İslâmî dönemde Şirvan tarihi (Hicri ilk üç asır). İstanbul: Marmara Üniversitesi Sosyal Bilimler Enstitüsü İlahiyat Anabi- lim Dalı İslam Tarihi Bilim Dalı, 2007.

[16] Bahadır G. Anadolu'da Bizans-Sasani etkileşimi (IV.– VII. Yüzyıllar). Turkish studies.Vol 6, 2011, s.685-703.

[17] Karadeniz Y. I. Hüsrev dönemi'nde ipek yolu üzerinde Sasani-Göktürk mücadelesi (531-579). Uluslararası Sosyal araştırmalar dergisi. Cilt: 4. Sayı: 16, 2011, s.207-214.

[18] Konuk S. Güneydoğu Anadolu bölgesinin III – VII. yüzyıllardaki tarihi coğrafyasına ilişkin erken ortaçağ kaynakları. Tarih İncelemeleri dergisi XXVIII / 1, 2013, s.175- 192.

Tədqiqatın gedişində Sovet və müasir Rusiya tarixçilərinin əsərlərindən də istifadə olunmuşdır. Rusiya tarix elmində Yaxın və Orta Şərqin, o cümlədən Azərbaycanın və İranın III-VII əsrlər tarixi ilə bağlı olan dəyərli əsərlər mövcutdur. Rusiya tarixçilərindən B.V.Millerin[1], A.P.Novoseltsevin[2], M.C.İvanovun[3], N.V.Piqulevskayanın[4], M.İ.Artamonovun[5], V.V.Bartoldun[6], S.B.Daşkovun[7], A.İ.Kolesnikovun[8], İ.Y.Kraçkovskinin[9], A.E.Krımskinin[10],V.Q.Lukoninin[11], A.A.Semyonovun, E.B.Smaqinanın, K.V.Treverin əsərlərinə müraciət edilmişdir.

---

[1] Миллер Б.В. Таты, их расселение и говоры // Изв. Общества обслед. и изуч. Азербайджана. №8.Вып.7, Баку: 1929, 44 с.

[2] Новосельцев А.П. Генезис феодализма в странах Закавказья. Москва: Наука, 1980.; Yenə onun: Новосельцев А.П. Раннесредневековая культура народов Закавказья // Вопросы истории. 1973. №6, с. 100-115.; Yenə onun: Новосельцев А.П. Хазарское государство и его роль в истории Восточной Европы и Кавказа. Москва: Наука, 1990.

[3] Иванов М.С. Очерк истории Ирана. Москва:Издательство МГУ, 1977.

[4] Пигулевская Н.В. Арабы у границ Византии и Ирана в IV – VI вв. Москва – Ленинград: Наука, 1964.; Yenə onun: Пигулевская Н.В. Византия и Иран на рубеже VI – VII веков. Москва – Ленинград: Изд-во АН СССР, 1946.; Yenə onun: Пигулевская Н.В. Маздакитское движение //Изв. АН СССР Сер. истории и философии. № 4, 1944.

[5] Артамонов М.И. История хазар. Ленинград: Изд-во Государственного Эрмитажа, 1962.

[6] Бартольд В.В. К вопросу о феодализме в Иране / Бартольд В.В. Работы по исторической географии и истории Ирана. Москва: Восточная литература, 2003, с. 459-468.; Yenə onun: Бартольд В.В. Место прикаспийских областей в истории мусульманского мира. Баку: О-во Обследования и Изучения Азербайджана, 1924.; Yenə onun: Бартольд В.В. Мусульманский мир / Бартольд В.В. Сочинения.В 9-ти томах. Т. VI. Москва: Наука, 1969, с. 207-297.; Yenə onun: Бартольд В.В. Хазары / Бартольд В.В. Сочинения.В 9-ти томах. Т. V. Москва: Наука, 1968, с. 597-601.

[7] Дашков С.Б. Цари Царей – Сасаниды. Иран III-VII вв. в легендах, исторических хрониках и современных исследованиях. Москва: СМИ-АЗИЯ, 2008.

[8] Колесников А.И. Завоевание Ирана арабами (Иран при «праведных» халифах). М.: Наука, 1982.; Yenə onun: Колесников А.И. Иран в начале VII века/Палестинский сборник. Вып 22(85). Ленинград: Наука, 1970.

[9] Крачковский И.Ю. Древнейший арабский документ из Средней Азии / Избранные сочинения: В 6-ти томах. Т. I. М.-Л.: Изд-во АН СССР, 1955, с. 182-212.; Yenə onun: Крачковский И.Ю. Вино в поэзии ал-Ахталя //Избранные сочинения. Т.2.Москва-Ленинград: Изд-во АН СССР 1956, с.417-432.; Yenə onun: Крачковский И.Ю. Сасанидская чаша в стихах Абу Нуваса //Избранные сочинения. Т.2. Ленинград: Изд-во АН СССР 1956, с.336-350.; Yenə onun: Крачковский И.Ю. Общие соображения о плане истории арабской литературы //Избранные сочинения. Т.2. Москва-Ленинград: Изд-во АН СССР, 1956, с.563-574.

[10] Крымский А.Е. История арабов и арабской литературы, светской и духовной (Корана, фикха, сунны и пр.). В 3 частях. Ч. I. Москва: Типография Я.А.Ниренберга, 1911.; Yenə onun: Крымский А.Е. История арабов, их халифат, их дальнейшие судьбы и краткий очерк арабской литературы. Москва: Издание Д.В. Солодова и В.Э. Павловского, 1903.; Yenə onun: Крымский А.Е. Страницы из истории северного или кавказского Азербайджана (классической Албании). Шеки / Памяти академика Н.Я. Марра (1864-1934). Москва-Ленинград: Изд-во АН СССР,1938, с. 369-384.

[11] Луконин В.Г. Иран в эпоху первых Сасанидов. Ленинград:Изд-во Гос. Эрмитажа,1961.; Yenə onun: Луконин В.Г. Культура сасанидского Ирана. Москва: Главная редакция восточной литературы, 1969.; Yenə onun: Луконин В.Г. Иран в III в. Новые материалы и опыт исторической реконструкции. Москва: Наука, 1979.; Yenə onun: Луконин В.Г. Древний и раннесредневековый Иран. Москва: Главная редакция восточной литературы, 1987.

İran tarixçiləri bu problemlə bağlı olaraq xeyli elmi əsər yazmış, nəşr etdirmişlər. İran alimlərinin əsərlərində Azərbaycanın erkən orta əsrlər tarixinə dair zəngin məlumat vardır. Bu əsərlərin əksəriyyətində Azərbaycan tarixi ilə bağlı olan subyektiv fikirlərə, birtərəfli yanaşmalara təsaduf olunsa da, Əbu Mənsur əs-Sə`əlibinin əsərinin müqayisəli təhlilində bu əsərlərin əhəmiyyəti qeyd edilməlidir.

A.Purməhəmmədəli[1], S.Nəfisi[2], M.Moin[3], Ə.Kəsrəvi-Təbrizi[4], M.T.Zehtabi[5], İ.Purdavud[6], M.Tərbiyət [7] öz əsərlərində Sasani imperiyasının siyasi, ictimai-iqtisadi tarixi, dini həyatı, Atropatena və Albaniyanın tarixi haqqında əhəmiyyətli məlumatlar vermişlər.

Tədqiqat prosesində Avropa tarixçilərinin əsərlərinə də müraciət edilmişdir. Məsələn, M.A.Boycenin[8], E.G.Braunun[9], M.Chaumontun[10], A.Christensenin[11], R.İ.Ghirshmanın[12], P.Cronenin[13], C.A.Dovsettin[14], D.Dunlopun[15], R.Fryein[16], H.Humbachin[17], H.Kennedinin[18], V.Minorskinin[19], Z.Rubinin, M.Sprenglingin[20] əsərlərində erkən orta əsrlər

---

1 پورمحمد علی .آ. ایران نامه .تهران.۱۹۴۲

2 ساید نفیسی.تاریخ تمدن ایران ساسانی.تهران.۱۹۵۲نفیسی.س. فرهنگنامه پارسی. تهران.۱۹۴۰

3 معین .م.مزدیسنا و تاثیر آن در ادبیات پارسی .تهران.۱۹۴۰

4 کسروی. ا. چهل مقاله کسروی.گرد آورنده یحیا زکا.تهران.۱۹۵۶

5 Zehtabi M.T. İran Türklərinin eski tarihi. İstanbul: 2010.

6 پورداود.ی.یسنا. بخش دوم.تهران.۱۹۵۸

7 تربیت.م. دانشمندان آذربایجان.تهران.۱۳۱۴ ه.ش

8 Boyce M. A History of Zoroastrianism. Vol. 1-2. Leiden-Koln: 1975-1982.

9 Browne E.G. A Literary History of Persia: from the earliest times until Firdawsi. London and Leipsig: T. Fisher Unwin, 1909.

10 Chaumont M. Albania / Encyclopaedia Iranica: in 45 volumes. Vol.I / Ed. By E.Yarshater. London & etc.: Routledge & Kegan Paul, 1985, pp.806-810.

11 Christensen A. I`Iran sous les Sassanides. Copenhaguen: 1944.

12 Ghirshman R. I`Iran: des origins a I`Islam. Paris: 1976.

13 Crone P. Zoroastrian Communism // Comparative Studies in Society and History.Vol. 36, №3, 1994, pp. 447-462.

14 Dowsett C. A Neglected Passage in the "History of the Caucasian Albanians" // Bulletin of the School of Oriental and African Studies, University of London.Vol. XIX. №3. 1957, pp. 456-468.

15 Dunlop D. Bab al-Abwab / The Encyclopaedia of Islam. New edition: in 12 volumes. Vol. I / Ed. By H.A.R. Gibb, J.Kramers, E.Levi-Provencal, J. Schacht et al. Leiden: E.J. Brill, 1986, pp. 835-836.

16 Frye R. Iran. London: George Allen & Unwin Ltd, 1954.; Yenə onun: Frye R. The Political History of Iran under the Sasanians / The Cambridge History of Iran: in 8 volumes. Vol. III (1) / Ed. By E. Yarshater. Cambridge: Cambridge University Press, 6th printing, 2009, pp. 116-180.; Yenə onun: Frye R. The Sasanians / The Cambridge Ancient History. New edition: in 14 volumes. Vol. XII / Ed. by A.Bowman, P.Garsney, A.Cameron. Cambridge: Cambridge University Press, 2005, pp. 461-480.

17 Humbach H. The Gathas of Zarathushtra and other old Avestan texts. Heidelberg: 1991.

18 Kennedy H. The esrly Abbasid Caliphate: A political history. Worcester: Billing & Sons Ltd., 1986.

19 Минорский В.Д. История Ширвана и Дербенда X-XI. Москва: 1963.; Yenə onun: Minorsky V. Adharbaydjan / The Encyclopaedia of Islam. New Edition: in 12 volumes. Vol. I / Ed. by H.Gibb, J.Kramers, E.Levi-Provencal, J.Schacht et al. Leiden: E.J. Brill, 1986, pp. 188-191.

20 Sprengling M. Shahpuhr I, the Great on the Kaabah of Zoroaster (KZ) // The American Journal of Semitic Languages and Literatures. Vol. 57, No. 4, 1940, pp. 341-429.

dövründə Azərbaycan və İran tarixinə aid olan maraqlı məlumatlar mövcuddur.

Tədqiqat gedişində ümumiləşdirici səciyyəli əsərlərdən[1] və internet resurslarından da istifadə olunmuşdur.

**Tədqiqatın mənbə bazası.** Əbu Mənsur əl-Hüseyn ibn Məhəmməd Əs-Sə`əlibinin "Ğurar əxbar muluk əl-furs va siyarihim" ("Fars şahları və onların həyatı haqqında seçilmiş məlumatlar") əsəri Azərbaycan tarix elmində ilk dəfə olaraq kompleks tədqiqata cəlb olunur. Problem araşdırılarkən dövrün ictimai-siyasi və mədəni həyatını dolğun əks etdirmək, müəyyən müqayisələr, təhlillər aparmaq üçün erkən orta əsrlərə aid olan digər ərəbdilli və farsdilli mənbələrdəndə istifadə olunmuşdur.

Tədqiqat işində alban müəllifi Moisey Kalankatuklunun salnamə səciyyəli "Albaniya tarixi" əsərindən[2] istifadə edilmişdir. Bu əsərdə erkən orta əsrlərdə Albaniya ərazisində baş vermiş siyasi, ictimai, mədəni hadisələr, Albaniyanın qonşu dövlətlərlə siyasi münasibətləri geniş şəkildə işıqlandırılmışdır.

Azərbaycan xalqının III-VII əsrlər tarixinin öyrənilməsinə yardım edən qiymətli mənbələr sırasında pəhləvi (orta fars) dilində yazılmış əsərlər diqqəti cəlb edir. Sasani hökmdarı I Şapurun (239-272) göstərişi ilə Muğ Kartirin "Kəbe-ye Zərdüşt"də yazdığı kitabə həmin mənbələrdən biridir. Bu kitabədən III əsrdə Sasani imperiyasının inzibati idarəetmə sistemi haqqında məlumatlar əldə etmək mümkündür. Həmin kitabədə verilən məlumatlar dövrün ictimai həyatının öyrənilməsi üçün də əhəmiyyətlidir[3].

Dövrün ictimai-siyasi və dini həyatını, dini qanunları özündə əks etdirən və günümüzə pəhləvi (orta fars) dilində gəlib çatmış əsərlərdən biri də "Avesta"dır. Bu əsərin müəllifi Zərdüştdür. O, zərdüştilik dininin, təliminin yaradıcısıdır, Azərbaycan tarixi ilə bağlı olan şəxsiyyətdir[4]. Zərdüştün müasir İran ərazisində (Cənubi Azərbaycanda), b.e.ə. VI-V yüzilliklər arasında yaşadığı ehtimal edilir. Zərdüştün anadan olduğu yer

---

[1] Azərbaycan tarixi. 7 cilddə. I cild (qədimdən -b.e.III əsri) Bakı: Elm, 2007.; Azərbaycan tarixi. 7 cilddə. II cild (III-XIII əsrin I rübü), Bakı: Elm, 2007.; Azərbaycan tarixi: uzaq keşmişdən 1870-ci illərə qədər / S.S. Əliyarlının redaktəsi ilə. Bakı: Azərbaycan, 1996.; Azərbaycan tarixi üzrə qaynaqlar / S.S. Əliyarlının redaktəsi ilə. Bakı: Çıraq, 2007.; История Востока: В 6-ти томах. Т. II / Отв. ред-ры: Л.Б. Алаев, К.З. Ашрафян. Москва: «Восточная литература» РАН, 2000.; Истрия Востока: В 6-ти томах. Т.1. Восток в древности. Москва:Восточная литература, 2000.; История Ирана с древнейших времен до конца XVII в. / Под ред. В.В. Струве. Ленинград: Изд-во Ленинградского университета, 1958.; История стран Азии и Африки в средние века: в 2 частях. Ч. I / Ред. коллегия: Ф.М. Ацамба, З.Г. Лапина, М.С. Мейер. Москва: Изд-во Моск. ун-та, 1987.

[2] Kalankatlı Moisey. Albaniya tarixi /Müqəddimə, tərcümə, qeyd və şərhlər akademik Ziya Bunyadovundur. Bakı: 1993.

[3] Fazili A. Atropatena e.ə. IV – e.VII əsri. Bakı: Azərbaycan EA Tarix İnstitutu, 1992, s.16.

[4] Məhəmmədəli Tərbiyət. Danişməndane Azərbaycan. Bakı: Azərnəşr, 1987, s.151-153.

kimi göstərilən “Eranvej” adlı məntəqənin orta əsrlərdə Arran vilayətində (müasir Azərbaycan Respublikasının ərazisində) olduğu böyük ehtimalla qeyd edilir[1].

Zərdüştilik və “Avesta” Azərbaycan tədqiqatçılarının da diqqətini cəlb etmiş, İ.H.Əliyevin[2], İ.Şəmsin[3], B.Şəfiyevin[4], İ.Quliyevin, E.Əlibəyzadənin “Avesta” haqqında əhəmiyyətli kitabları, məqalələri nəşr olunmuş, maraqlı mülahizələri irəli sürülmüşdür.

Azərbaycan Atropatena dövlətinin tarixinin öyrənilməsinə yardım edən, pəhləvi dilində yazılmış mənbələrdən biri “Tanserin məktubu”dur. Tanserin bu məktubu dövrün ictimai-iqtisadi tarixinin öyrənilməsi üçün qiymətli mənbədir. Həmin məktubda torpaq mülkiyyəti formalarından, ictimai zümrələrdən və vergi növlərindən ətraflı surətdə bəhs edilir. "Tanserin məktubu"nu VIII əsrdə İbn Mütəffə ərəb dilinə tərcümə etmiş, lakin nə bu tərcümə, nə də məktubun orijinalı bizə gəlib çatmamışdır. İbn İsfəndiyar "Tarix-e Təbəristan" (“Təbəristan tarixi”) əsərini yazarkən "Tanserin məktubu" Mazandaran hakimi Cəşnəsəf şaha yazıldığına görə o, həmin məktubun ərəbcəyə tərcümə olunmuş mətninin bir nüsxəsini tapıb fars dilinə tərcümə etmişdir. Bu məktubda Sasani dövlətinin daxili quruluşundan, şahənşahın məbədlərlə və əhali ilə olan munasibətlərindən bəhs edilir[5].

Pəhləvi dilində yazılmış mənbələrdən biri də VIII-IX əsrlərdə qələmə alındığı güman edilən “Şəhrestaniha-ye İranşəhr” əsəridir. Bu əsər Cənubi Azərbaycanın erkən orta əsr şəhərləri haqqında məlumatların toplandığı ən qiymətli mənbələrdən biridir[6].

“Dastan-e-Bəhram Çubin” əsəri pəhləvidilli kitablardan biridir. Bu kitabda Sasani dövrünün görkəmli şəxsiyyətlərindən olmuş, Azərbaycan tarixi ilə də bağlılığı olan Bəhram Çubinin həyatından və həmin dövrdə Sasani imperiyasında baş vermiş siyasi hadisələrdən bəhs olunur[7].

X əsrdə (h.372-ci/982-ci ildə) anonim müəllifin farsca yazdığı “Hüdud əl-aləm” əsəri erkən orta əsrlərdə Azərbaycanın siyasi hüdudlarını və

---

[1] Fazili A. Azərbaycanın qədim və orta əsrlər tarixi İran tarixşünaslığında (III-VII əsrlər). Bakı: Elm, 1984, s.134-135.
[2] Алиев И.Г. Очерк истории Атропатены. Баку: Азернешр, 1989.
[3] Avesta (I kitab) / fars dilindən tərcümə edəni və çapa hazırlayanı İsmayıl Şəms. Bakı: YYSQ,1995.
[4] ŞəfiyevB.C. Zərdüşt, Avesta, Azərbaycan. Bakı:Elm,1996.
[5] Колесников А.И. Иран в начале VII века/Палестинский сборник. Вып 22(85). Ленинград: Наука, 1970, с.18-21.
[6] Sivrioğlu U.T. Pehlevice (orta farsça) bir tarihî coğrafya metni: Şahrestānīhā ī Erānšahr. Akademik Tarih ve Düşünce Dergisi 2014 / Cilt:1 / Sayı:3 / ağustos, s. 4-31.
[7] Fazili A. Azərbaycanın qədim və orta əsrlər tarixi İran tarixşünaslığında (III-VII əsrlər). Bakı: Elm, 1984, s.14.

şəhərlərini müəyyən etmək üçün qiymətli mənbələrdəndir. Bu əsərdə Atropatenanın və Albaniyanın əsas şəhərləri, həmin şəhərlərin ictimai-iqtisadi həyatı haqqında məlumat verilir, ölkədə mövcud olan dəniz və çaylar haqqında təsvirlər təqdim edilir[1].

Əbülqasim Firdovsinin (934-1024) "Şahnamə" poeması dövrün dəyərli farsdilli qaynaqlarından biridir. Klassik Şərq poeziyasının nümayəndələrindən biri olan Əbülqasım Firdovsinin "Şahnamə" poeması böyük tarixi hadisələri əhatə etməsi, əks etdirməsi, xalqın bədii təfəkkür tərzini ifadə etməsi ilə dünyada şöhrət qazanmışdır, bu əsərdə Sasani dövlətinin tarixini, baş vermiş siyasi hadisələri, qonşu dövlətlərlə münasibətləri poetik şəkildə təsvir etmişdir[2].

Ərəbdilli mənbələrdə də Azərbaycanın erkən orta əsrlər tarixi haqqında xeyli məlumat vardır. Bu əsərlərdə həm Azərbaycanın islamaqədərki tarixi, həm də islam dövrünün siyasi, dini, ictimai-iqtisadi tarixi, şəhər həyatı geniş şəkildə təsvir olunmuşdur. Əbu Cəfər Məhəmməd ibn Cərir ət-Təbərinin (839-923) "Tərix ər-rüsul va-l-müluk"[3], Əhməd ibn Yəhya ibn Cabir əl-Bəlazurinin (820-892) "Kitab fütuhi-l-buldən"[4], Əbu Məhəmməd Əhməd İbn Ə'səm əl-Kufinin (926-cı ildə vəfat etmişdir) "Kitab əl-fütuh"[5], Əhməd ibn Əbu Yaqub ibn Cəfər ibn Vadih əl-Kətib əl-Abbasi əl-Yaqubinin (IX əsr) "Tarix"[6], İbn Xordadbehin (820-913) "Kitabü-l-məsalik və-l-məmalik"[7], Yaqut Əl-Həməvinin(1179-1229) "Mucam əl-buldan"[8] əsərləri bu sıradadır. Həmin əsərlərdə erkən orta əsrlərdə Azərbaycanın – siyasi, ictimai-iqtisadi və mədəni həyatı haqqında çox qiymətli məlumatlar vardır.

Ərəbdilli və farsdilli mənbələrlə yanaşı, dövrün mənbələri içərisində digər müəlliflərin əsərləri də əhəmiyyətlidir. Feofilakt Simokattanın (VII əsr) "Tarix"əsərində[9], Sebeosun (VII əsr) "Tarix" kitabında[10], Moisey

---

[1] Kurulay S.O.Hudûd el-âlem' e göre 10.asırda türk boyları. İstanbul: 2007.
[2] Firdovsi Ə. Şahnamə. Tərcümə M.Əlizadə. Bakı: Yazıçı, 1986.
[3] Orta əsr ərəb mənbələrində Azərbaycan tarixinə aid materiallar / Məsul redaktor: F.Əsədov. Bakı: Nurlan, 2005, s.103-148.
[4] Yenə orada: s.151-198.
[5] Yenə orada: s.16-100.
[6] Yenə orada: s.201-246.
[7] Ибн Хордадбех. Книга путей и стран // перевод с арабского, комментарии, указатели и карты Н.Велихановой, Баку: Элм, 1986.
[8] Йакутал-Хамави. Муджам ал-булдан (Сведения об Азербайджане)/Пер. с арабского З.М. Буниятова и П.К. Жузе. Баку: Элм, 1983.
[9] Колесников А.И. Иран в начале VII века/Палестинский сборник. Вып 22(85). Ленинград: Наука, 1970, с.24-25.
[10] Себеос. История императора Ираклия. Сочинение епископа Себеоса, писателя VII века. Пер. с АРМ. Спб.: 1862.

Xorenskinin (V əsr) “Ermənistan tarixi” əsərində[1], VII əsrə aid olan “Anonim Suriya xronikası”nda[2] Azərbaycanın erkən orta əsrlər tarixi ilə bağlı olan məlumatlara təsadüf edilir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Əbu Mənsur əl-Hüseyn ibn Məhəmməd Əs-Sə`əlibinin “Ğurar əxbar muluk əl-furs va siyarihim” (“Fars şahları və onların həyatı haqqında seçilmiş məlumatlar”) əsəri əsasında III-VII əsrlərdə Azərbaycan xalqının ictimai-siyasi həyatını təhlil etmək, Azərbaycan Albaniya və Atropatena dövlətlərinin qonşu dövlətlərlə münasibətlərini araşdırmaq, Sasani imperiyasının inzibati-idarəçilik sistemi haqqında müəyyən təsəvvür yaratmaq, bu dövrdə Azərbaycan əhalisinin dini dünyagörüşünün, III-VII əsrlərin dini ideologiyasının mahiyyətini aydınlaşdırmaq, bu ideologiyanın Sasani imperiyasına qarşı baş vermiş dini-ictimai hərəkatlarda rolunu üzə çıxarmaq tədqiqatın əsas məqsədidir. Bu məqsədə nail olmaq üçün qarşıya aşağıdakı konkret vəzifələr qoyulmuşdur:

- Əbu Mənsur əl-Hüseyn ibn Məhəmməd Əs-Sə`əlibinin həyatını, elmi fəaliyyətini araşdırmaq, “Ğurar əxbar muluk əl-furs va siyarihim” (“Fars şahları və onların həyatı haqqında seçilmiş məlumatlar”) əsərinin quruluşunu, yazı üslubunu və səciyyəvi xüsusiyyətlərini təhlil etmək, həmin mənbənin yazılma tarixini müəyyənləşdirmək;
- III-VII əsrlərdə Ön Asiyada baş vermiş siyasi və ictimai-iqtisadi hadisələri müqayisəli şəkildə təhlil etmək, Sasani imperiyasına tabe olunan Atropatenanın və Albaniyanın ictimai-iqtisadi, siyasi vəziyyətini, dini həyatını araşdırmaq;
- III-VII əsrlərdə Sasani imperiyasında, o cümlədən Atropatena və Albaniyada baş vermiş dini və ictimai hərəkatları, həmin hərəkatların başvermə səbəblərini müəyyən etmək, zərdüştiliyin, maniliyin və məzdəkiliyin qarşılıqlı əlaqəsini üzə çıxarmaq və onların müqayisəli təhlilini aparmaq;
- həmin dövrdə Azərbaycanın qonşu ölkələrlə siyasi, ictimai-iqtisadi və dini-ideoloji əlaqələrini səciyyələndirmək;
- Sasani şahənşahları dövründə Azərbaycan ərazisinə, xüsusilə ölkənin şimal bölgələrinə köçürülmüş qeyri-türk əhalisinin məskunlaşma arealını müəyyən etmək, bu köçürmələrin Azərbaycandakı etnodemoqrafik və ictimai-iqtisadi vəziyyətə təsiri dərəcəsini müəyyənləşdirmək;

[1] Хоренский Моисей. История Армении. Москва: 1893.
[2] Колесников А.И. Иран в начале VII века/Палестинский сборник. Вып 22(85). Ленинград: Наука, 1970, с. 26-28.

- erkən orta əsrlərdə Azərbaycanda şəhərlərin inkişaf xüsusiyyətlərini öyrənmək, müdafiə istehkamlarının qurulmasını zəruri etmiş siyasi amilləri müəyyən etmək, həmin istehkamların qurulma mexanizmini təhlil etmək.

**Dissertasiya işinin metodoloji əsası.** Dissertasiya işində qarşıya qoyulmuş problemləri tədqiq edərkən müqayisəli təhlil və nəzəri yanaşma metodu əsas götürülmüşdür. Araşdırma gedişində obyektivlik, tarixi hadisələrə kompleks yanaşma, sistemlilik prinsiplərinə, bütün mənbələrin və elmi ədəbiyyatın müqayisəli şəkildə araşdırılmasına istinadlanan obyektiv tarixi tədqiqat metoduna əməl edilmişdir. Mənbələrin öyrənilməsi zamanı tarixi alternativlik prinsipinə də əməl olunmuş, müqayisəli-tənqidi təhlilə üstünlük verilmişdir.

**Tədqiqat işinin elmi yeniliyi.** Əbu Mənsur əs-Sə`alibinin tədqiq olunan əsəri Vətən tarix elmində ilk dəfə olaraq tədqiqata cəlb olunmuşdur və bu, tədqiqat işinin elmi yeniliyini şərtləndirən əsas cəhətdir. Əbu Mənsur əl-Hüseyn ibn Məhəmməd Əs-Sə`əlibinin həyatı, elmi-ədəbi fəaliyyəti araşdırılmış, "Ğurar əxbar muluk əl-furs va siyarihim" ("Fars şahları və onların həyatı haqqında seçilmiş məlumatlar") əsəri barəsində və onun əsasında Azərbaycanın erkən orta əsrlər dövrünün siyasi, ictimai-iqtisadi, dini-ideoloji məsələləri ilə bağlı olan bir sıra yeni müddəalar irəli sürülmüşdür:

- Azərbaycan milli tarix elmində ilk dəfə olaraq Əbu Mənsur əl-Hüseyn ibn Məhəmməd Əs-Sə`əlibinin həyatı və elmi-ədəbi yaradıcılığı araşdırılmış, "Ğurar əxbar muluk əl-furs va siyarihim" ("Fars şahları və onların həyatı haqqında seçilmiş məlumatlar") əsəri kompleks şəkildə tədqiq olunmuş, elmi dövriyyəyə daxil edilmiş, bu əsərin mənbə kimi əhəmiyyəti üzə çıxarılmışdır;
- Əbu Mənsur əl-Hüseyn ibn Məhəmməd Əs-Sə`əlibinin öz dövrünün görkəmli simalarından biri olduğu aşkar edilmiş, onun "Ğurar əxbar muluk əl-furs va siyarihim" ("Fars şahları və onların həyatı haqqında seçilmiş məlumatlar") əsərinin quruluşu, üslubu təhlil edilmiş, əsərin yazılma tarixi müəyyənləşdirilmişdir;
- erkən orta əsrlərdə Ön Asiyada baş vermiş siyasi və ictimai-iqtisadi hadisələr müqayisəli şəkildə təhlil edilmiş, Sasani imperiyasına tabe olmuş Atropatenanın və Albaniyanın siyasi, ictimai-iqtisadi vəziyyəti, dini həyatı araşdırılmışdır;
- III-VII əsrlərdə Sasani imperiyasında, o cümlədən Atropatenada və Albaniyada baş vermiş dini və sosial hərəkatlar, onların başvermə

səbəbləri, zərdüştiliyin, maniliyin, məzdəkiliyin qarşılıqlı əlaqəsi müqayisəli şəkildə təhlil edilmişdir;

- həmin dövrdə Azərbaycanın qonşu ölkələrlə siyasi, ictimai-iqtisadi və dini-ideoloji əlaqələri araşdırılmışdır;
- Sasani hakimiyyəti dövründə Şimali Azərbaycana köçürülmüş qeyri-türk əhali, bu əhalinin məskunlaşma arealı müəyyənləşdirilmiş, həmin köçürmələrin Azərbaycanın demoqrafik və ictimai-iqtisadi vəziyyətinə təsiri dərəcəsinin müəyyən edilməsinə cəhd göstərilmişdir;
- erkən orta əsrlərdə Azərbaycanda şəhərlərin salınmasını və müdafiə istehkamlarının qurulmasını zəruri etmiş siyasi amillər, həmin istehkamların qurulma mexanizmi təhlil edilmişdir.

**Tədqiqat işinin nəzəri və praktiki əhəmiyyəti.** Azərbaycanın erkən orta əsrlər tarixi araşdırılarkən obyektiv və bitkin mənbələrdə verilən məlumatların əhəmiyyəti çox böyükdür. Əbu Mənsur əs-Sə`əlibinin əsərində dövrün ictimai-siyasi şəraitinə uyğun olaraq Azərbaycan tarixinə dair subyektiv mülahizələrə təsadüf olunsa da, bu mənbədə tariximizin III-VII əsrlərinin ictimai-iqtisadi, siyasi və dini həyatı ilə bağlı olan maraqlı məlumatlar da vardır. Azərbaycanın erkən orta əsrlər tarixinin bir çox tərəflərini bu məlumatlar əsasında dolğun şəkildə öyrənmək mümkündür. Tədqiqat prosesində əldə olunmuş elmi nəticələr nəzəri və təcrübi əhəmiyyətə malikdir. Dissertasiya işinin materiallarından Azərbaycan və İran tarixinə dair ümumiləşdirilmiş əsərlərin yazılmasında istifadə etmək mümkündür. Vətənin erkən orta əsrlər tarixinin öyrənilməsində, digər mənbələr tədqiq olunarkən bu mənbədən təqdim etdiyimiz faktlardan da istifadə oluna bilər.

**Dissertasiya işinin aprobasiyası.** Dissertasiya mövzusu Azərbaycan Milli Elmlər Akademiyasının A.A.Bakıxanov adına Tarix İnstitutunun "Azərbaycanın orta əsrlər tarixi" şöbəsində yerinə yetirilmişdir. Dissertasiyanın əsas müddəaları öz əksini müəllifin nəşr olunmuş məqalələrində, müxtəlif konfranslardakı elmi məruzələrində tapmışdır.

**Dissertasiyanın quruluşu.** Dissertasiya giriş, 3fəsil, 6 yarımfəsil, nəticə, istifadə olunmuş mənbə və ədəbiyyatın siyahısından ibarətdir.

## II. DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın I fəsli **"Əbu Mənsur əs-Sə`əlibi və onun "Ğurar əxbar muluk əl-furs va siyarihim" əsəri"** adlanır. Bu fəslin ilk yarımfəslində Əbu Mənsur əs-Sə`əlibinin həyatı və elmi-ədəbi fəaliyyəti təhlil edilib. Əbu Mənsur Əbdülmalik ibn Məhəmməd ibn İsmayıl əs-Sə`əlibi-Nişapuri 350-ci (961-ci) ildə Nişapur şəhərində anadan olmuşdur**.** Əsərlərindəki qeydlərdən məlum olur ki, o, ilk təhsilini burada almış, ərəb dilinə, ədəbiyyatına və dövrünün bütün elmlərinə dərindən yiyələnmişdi[1].

K.E.Bosvort Əbülfəzl Beyhəqinin sözlərinə istinadən yazmışdır ki, filosof Əbu Əli ibn Sina və filoloq Əbu Mənsur əs-Sə`əlibi kimi məşhur alimlər Məmunların himayəsindən yararlanmışlar[2].

Müxtəlif ölkələrə səyahətlər, alim, şair, ədib və dövlət xadimləri ilə tanışlıq Əbu Mənsur əs-Sə`əlibi üçün bilik mənbəyi idi. O,h.429-cu/1038-ci ildə (bəzi mənbələrə görə isə h.430-cu/1039-cu ildə) 78 yaşındaikən Nişapurda vəfat etmişdir[3].

Əbu Mənsur əs-Sə`əlibi tarix əsərləri ilə yanaşı leksikologiyaya, ədəbiyyatşünaslığa aid elmi əsərlər də yazmışdır. Əbu Mənsur əs-Sə`əlibinin yaradıcılığı müəyyən bir mövzu və janrla məhdudlaşmırdı. Onun müasirləri Əbu Mənsur əs-Sə`əlibinin "şeirlərdən ibarət olan divanının olduğunu" da qeyd etmişlər. Lakin Əbu Mənsur əs-Sə`əlibinin "Divan"ı bizim dövrümüzə qədər gəlib çıxmamışdır.

Əbu Mənsurəs-Sə`əlibinin "Yətimat əd-dəhr fi mahasin əhl əl-asr" ("Müasirlərin yaradıcılığında dövrün nadir incisi") əsəri ona böyük şöhrət gətirmişdi. Hanna əl-Faxuri qeyd edir ki, bu əsərə "Yətimat əd-dəhr fi şuara əl-asr" ("Əsrin şairləri haqqında nadir inci") adı ilə də təsadüf edilir[4].

Bir sıra müasir ərəb alimləri (Umar Rıza Kahhala, Hanna əl-Faxuri), Avropa şərqşünasları (K.Brokelman, X.A.R.Gibb, De Slen), Rusiya tədqiqatçıları (V.V.Bartold, A.A.Krımski, İ.Y.Kraçkovski, Y.E.Bertels), özbək alimi İ.Abdullayev, İran alimi S.Nəfisi Əbu Mənsur əs-Sə`əlibinin

---

[1] Усмонов Ф.И. Абу Мансур ас-Саалиби и его «Татиммат ал-йатима» как источник по арабоязычной персидско-таджикской поэзии X века. Душанбе : АНРеспублики Таджикистан, 2011, с.20.
[2] Усмонов Ф.И. Абу Мансур ас-Саалиби и его «Татиммат ал-йатима» как источник по арабоязычной персидско-таджикской поэзии X века. Душанбе : АНРеспублики Таджикистан, 2011, с.21-22.
[3] Yenə orada: s.21.
[4] Хабибуллаев А.Т. Антология «Ал-и'джаз ва-л-иджаз» ас-Са`алиби как литературный памятник. АНРУ Институт рукописей. Ташкент: 1994, с.3.

əsərlərinin bir hissəsini tədqiq etmiş və yaxud həmin əsərlərdən öz elmi araşdırmalarında istifadə etmişlər[1].

Beləliklə, görkəmli alim Əbu Mənsur əs-Sə`əlibi zəngin elmi təcrübəsi, siyasi, elmi əlaqələri nəticəsində müsəlman xalqları üçün çox əhəmiyyətli olan tarixi və ədəbi əsərlər yaratmış, bu əsərləri ilə islam Şərqində elmin zənginləşməsində əhəmiyyətli rol oynamışdır.

**"Əbu Mənsur əs-Sə`əlibinin "Ğurar əxbar muluk əl-furs va siyarihim" əsərinin mənbələri"** adlı ikinci yarımfəsildə tədqiqat obyektimiz olan mənbənin strukturu, üslubu və səciyyəvi xüsusiyyətləri təhlil edilib, sözügedən mənbənin yazılma tarixinə aydınlıq gətirilib.

Əbu Mənsur əl-Hüseyn ibn Məhəmməd ibn İsmayıl əs-Sə`əlibinin 1021-ci ildə yazdığı غرر اخبار ملوك الفرس و سيرهم("Ğurar əxbar muluk əl-furs va siyarihim") ("Fars şahları və onların həyatı haqqında seçilmiş məlumatlar") əsərini öz hamisi, ordunun baş qərargah rəisi, Nəsirəddinin oğlu Əbülmüzəffər Nasirin göstərişi ilə yazmışdır[2].

Hal-hazırda əsərin tam olmayan 3 əlyazma nüsxəsi məlumdur. Bu nüsxələrdən biri İstanbuldakı İbrahim Paşa kitabxanasında. Digər 2 əlyazma nüsxəsi isə Paris Milli Kitabxanasında saxlanılır[3].

Əbu Mənsur əs-Sə`əlibinin bu əsərinin Paris Milli Kitabxanasında saxlanılan 2 əlyazma nüsxəsindən birinin üzü 1836-cı ildə Paris Kral Kitabxanası üçün İbrahim Paşa kitabxanasında saxlanılan əlyazmalardan köçürülmüşdür. Milli Kitabxananın ərəb fondunun 5053 sayı ilə qeyd olunan ikinci əlyazma isə 1891-ci ildə Mosulda əldə edilmişdir. Bu əlyazmanın kənar haşiyəsində (onun XVI əsrdə yazıldığı ehtimal olunur- A.Ş.) "Əs-Sə`əlibinin tarixinin birinci cildi" cümləsi qeyd olunmuşdur[4].

Əsərin İstanbul əlyazma nüsxəsində Əl-Hüseyn İbn Məhəmməd Əl-Marğani "əsər müəllifi" kimi təqdim olunduğu halda, Paris Milli Kitabxanasının əlyazmasında (1891-ci il nüxsəsi – A.Ş.) əsər müəllifinin "Mosulda doğulmuş Əbu Mənsur əs-Sə`əlibi olduğu göstərilir.

Biz Əbu Mənsur əs-Sə`əlibinin 1900-cu ildə Herman Zotenberqin müqəddiməsi ilə Parisdə nəşr olunmuş, Paris Milli Kitabxanasında saxlanılan1891-ci il nüsxəsindən istifadə etmişik.

---

[1] Усмонов Ф.И. Абу Мансур ас-Саалиби и его «Татиммат ал-йатима» как источник по арабоязычной персидско-таджикской поэзии X века. Душанбе : АНРеспублики Таджикистан, 2011, с.35.

[2] Zotenberg H. Histoire des Rois des Perses par Abou Mansour ʻAbd Al-Malik Ibn Mohammad Ibn Ismail Al-Tha'alibi. Imprimerie nationale, Paris: 1900, p.XXVII.

[3] Zotenberg H. Histoire des Rois des Perses par Abou Mansour ʻAbd Al-Malik Ibn Mohammad Ibn Ismail Al-Tha'alibi. Imprimerie nationale, Paris: 1900, p.I.

[4] Yenə orada: p.III.

Herman Zotenberq "Ğurar əxbar muluk əl-furs va siyarihim" əsərinə yazdığı müqəddiməsində qeyd etmişdir ki, əsər Kəyumərsdən Yezdəgirdə qədər İran (Sasani-A.Ş.)şahənşahlarının tarixindən,İsrailin peyğəmbər övladları haqqında faktlardan, maraqlı hadisələrdən, fironlardan, İsrailin digər hökmdarlarından, Yəmən, Suriya ərəblərindən, İran (Sasani-A.Ş.) hökmdarlarından, bəzi yunan siyasi xadimlərindən, Hind, Türk, Çin hökmdarlarından, onların inanc və adətlərindənbəhs edir[1].

Əs-Sə`əlibinin əsərlərində təsvir etdiyi hadisələri iki qrupa bölmək olar: 1) Müəllifin əsasən öyrəndiyi, şahidi olduğu hadisələrin salnaməsi; 2) digər əsərlərdən əxz edilmiş məlumatlar.

Əbu Mənsur əs-Sə`əlibi"Ğurar əxbar muluk əl-furs va siyarihim" əsərinin müxtəlif hissələrində Əbülqasim Firdovsinin, Həmzə İsfahaninin, İbn Xordadbehin, Ət-Təbərinin, Əl-Məqdisinin və digər müəlliflərin əsərlərindən istifadə etmiş və iqtibaslar etmişdir[2].

II fəsil **"III-VII əsrlərdə Azərbaycanın ictimai-siyasi və dini-ideoloji həyatı Əbu Mənsur əs-Sə`əlibinin "Ğurar əxbar muluk əl-furs va siyarihim" əsərində"** adlanır və iki yarımfəsildən ibarətdir. Bu fəsildə III-VII əsrlərdə Sasani imperiyasının siyasi durumu, sosial-iqtisadi və dini-ideoloji münasibətləri xarakterizə edilmişdir. Orta əsr mənbələrində Azərbaycan əhalisinin dili və etnik tərkibi haqqında da qiymətli məlumatlar vardır. Alban dövlətinin "yerli sülalənin nümayəndələri tərəfindən idarə olunduğu" haqqında məlumat verən Moisey Kalankatlı bu sülaləni türklərin ulu babası Yafəsin şəcərəsinə bağlayaraq "sülalənin ilk nümayəndəsinin "Aran" ("Arran") adlı hökmdar olduğunu" bildirir və Aranı Sisakan (Sünik) nəslinə aid edir[3].

Z.M.Bünyadov "Kitab əl-Tircan" əsərinə istinad edərək Əməvi sülaləsindən (661-750) olan xəlifə I Müaviyyənin yəmənli "Übeyd bin Şəriyyə" adlı şəxslə dialoqunu vermişdir. Burada I Müaviyyə ondan soruşur: " Türklər və Azərbaycan nə deməkdir?". Abid isə cavab verir: "Azərbaycan qədimdən türklərin yaşadığı ölkədir"[4].

Ət-Təbərinin "Tarix" əsərində də Azərbaycan əhalisinin etnik tərkibi haqqında məlumat verilmişdir: "Məsləmə ibn Əbdülmalik türklərə qarşı

---

[1]Zotenberg H. Histoire des Rois des Perses par Abou Mansour 'Abd Al-Malik Ibn Mohammad Ibn Ismail Al-Tha'alibi. Imprimerie nationale, Paris: 1900, p. 38-39, 41, 43-45, 53-54

[2] Крачковский И.Ю. Общие соображения о плане истории арабской литературы //Избранные сочинения. Т.2. Москва-Ленинград: Изд-во АН СССР, 1956, с. 63,67-68; Zotenberg H. Histoire des Rois des Perses par Abou Mansour 'Abd Al-Malik Ibn Mohammad Ibn Ismail Al-Tha'alibi. Imprimerie nationale, Paris: 1900, p. XIX-XXIII.

[3] Kalankatlı Moisey. Albaniya tarixi /Müqəddimə, tərcümə, qeyd və şərhlər akademik Ziya Bunyadovundur. Bakı: 1993, s.14-15.

[4] Bünyadov Z. Azərbaycan VII-IX əsrlərdə. Bakı: Şərq-Qərb, 2007, s.174.

yürüş etdi, Azərbaycan nahiyələrindən olan Əl-Baba (Dərbəndə-A.Ş.) çatdı, orada qalalar və şəhərlər fəth etdi”[1].

R.Ə.Ağayev son tədqiqat əsərlərində Azərbaycanın yerli əhalisinin dili ilə bağlı olan mühüm müddəalar irəli sürmüşdür. O, orta əsr ərəb qaynaqlarına istinad edərək “Azərbaycanın yerli əhalisinin türk mənşəli olduğunu” elmi dəlillərlə əsaslandırmışdır. R.Ə.Ağayev araşdırdığı mənbələr əsasında bu qənaətə gəlmişdir ki, “Azərbaycanda yaşayan türklərlə Xəzər türkləri (xəzərlər) bir-birindən fərqləndirilmişlər”. Belə ki, Azərbaycanın əhalisinə “türk”, Dərbənddən şimalda yaşayan əhaliyə isə “Xəzər türkləri” (“xəzərlər”) deyilmişdir[2].

Digər orta əsr ərəb qaynaqlarında qeyd olunmuş bu faktı Əbu Mənsur əs-Sə`əlibi də təsdiq etmişdir: “Xosrov Ənuşirəvanın hakimiyyəti dövründə İranşəhr çiçəkləndi, elm və mədəniyyət ön plana keçdi. Ənuşirəvan İranşəhr əhalisini düşmənlərdən: türklərdən, xəzərlərdən və ruslardan qorumaq məqsədilə sərhədlərə və keçid yollarına nəzarəti və ümumən sərhədləri gücləndirdi”[3] . Müəllif bu məlumatında Xəzər türklərini (xəzərləri) Azərbaycan türklərindən fərqləndirirdi.

Əbu Mənsur əs-Sə`əlibinin əsərində Sasani dövlətinin siyasi, ictimai-iqtisadi tarixi ilə bağlı olaraq təsvir edilən hadisələr müəyyən dərəcədə Azərbaycanla bağlı olmuşdur. Bu əsərdə qeyd olunan hadisələrin bir qismi Azərbaycandan kənarda baş versə də, Azərbaycan Sasani imperiyasının tərkib hissəsi kimi bu hadisələrin ciddi təsirinə məruz qalmışdır.

Əbu Mənsur əs-Sə`əlibinin əsərində Azərbaycan hüdudlarını da əhatə edən siyasi hadisələrin təsviri əsasən VI-VII əsrləri əhatə edir.

Azərbaycanın və “Ərminiyyə”nin, sonralar isə Reyin və Xorasanın mərzbanı olmuş Sasani sərkərdəsi Bəhram Çubin haqqında bir çox ərəb mənbələrində maraqlı məlumatlar vardır.

588-ci ildə türk əsilli Eftallar Sasanilərə qarşı yeni müharibəyə başladılar. Iranşəhrin vəziyyəti ağır idi. Onlarla mübarizə aparmaq üçün Azərbaycandan gəlmiş Bəhram Çubin Sasani qoşununa sərkərdə təyin olunmuşdu. Əbu Mənsur əs-Sə`əlibi bu barədə yazmışdır: “Hörmüz öz dövlətinin ali insanları ilə məsləhətləşdi onlardan xahiş etdi: ona orduya rəhbərlik edə biləcək yararlı adam göstərsinlər ki, bu sərkərdə türklərə qarşı qəhrəmanlıqla döyüşsün. Əksəriyyət Bəhram Çubinin namizədliyi üzərində dayandı. Bəhram Çubin Azərbaycandan gəlmiş məşhur sərkərdə, həm də

---

[1] Ağayev R.Ə. Səlcuqlaraqədərki dövrdə Azərbaycanda türklərin varlığına dair faktlar /Tarix və onunproblemləri, № 2, s. 30.
[2] Yenə orada: s. 30-31.
[3]Zotenberg H. Histoire des Rois des Perses par Abou Mansour ‘Abd Al-Malik Ibn Mohammad Ibn Ismail Al-Tha’alibi. Imprimerie nationale, Paris: 1900, p. 610-611.

əla süvari idi. İgidlik və qocaqlıq, sərkərdəlik istedadı və siyasi vərdişlər onun səciyyəvi xüsusiyyətləri idi” [1].

Əbu Mənsur əs-Sə`əlibi onu da qeyd edir ki, Bəhram Hörmüzlə şahzadə Xosrov Pərvizi bir-birinə düşmən etmək qərarına gəldi. Bu məqsədlə o, Xosrov Pərvizin adına qızıl sikkələr kəsdirərək onu bütün İranşəhrdə məhşurlaşdırdı. Bəhram Hörmüzə daha bir məktub yazdı, ona“geri çəkilməyi və hakimiyyəti Pərvizə verməyi” məsləhət gördü[2].

Əbu Mənsur əs-Sə`əlibinin əsərində qeyd olunur ki, Hörmüz bu məktubu oxuyan kimi təlaşa düşdü. IV Hörmüzün “Adhia Küşasp” adlı köməkçisi ona “Xosrov Pərvizi öldürməyi və Bəhramla dil tapmağı” məsləhət gördü. Lakin IV Hörmüzün bir qulu bu söhbəti eşitdi, eşitdiklərini Pərvizə danışdı və onu “yaxınlaşmaqda olan bəladan” xəbərdar etdi. Xosrov Pərviz gecəikən yola çıxdı və Azərbaycana getdi. Bu əyalətin valisi onun qayğısına qaldı, onu müdafiə etməyi öz öhdəsinə götürdü[3].

Əbu Mənsur əs-Sə`əlibi öz əsərində “Xosrov Pərvizin tez-tez Azərbaycana gəldiyi” barədə məlumat vermişdir. O, qeyd etmişdir ki, “Azərbaycan valisi, ordu, yuxarı təbəqə və əhali onu çox sevirdi. O, öz ordusunu burada saxlayırdı. Vali isə öz növbəsində onu döyüşlərdə müşayiət edirdi”[4].

Əbu Mənsur əs-Sə`əlibi Rüstəməl-Azəri ilə bağlı hekayətində qeyd edir ki, Sasani şahənşahı çıxılmaz vəziyyətdə olduğunu başa düşdükdə,“ərəblərin sarsılmaz bir gücə malik olduğunu” anladıqda onlara qarşı güclü bir ordu yaratdı: O, Sasani imperiyasının hər bir vilayətindən mahir sərkərdələri və əsgərləri topladı, bu orduya başçılığı məşhur sərkərdə Rüstəmə həvalə etdi. Əbu Mənsur əs-Sə`əlibinin məlumatına görə,“ərəblərə qarşı mübarizə aparmış bu Sasani sərkərdəsi Azərbaycandan olan Rüstəməl-Azəri idi”[5].

III Yəzdəgird imperiyanın paytaxtı Ktesifonu (Mədaini) mühasirə etmiş ərəblərə qarşı Rüstəmin başçılığı ilə 80 minlik ordu göndərdi. Sasani şahənşahının hakimiyyəti altında olan ölkələrin (Arranın və “Ərminiyyə”nin) qoşunları da Rüstəmin ordusunda idilər. Lakin ərəblər

---

[1] Zotenberg H. Histoire des Rois des Perses par Abou Mansour ‘Abd Al-Malik Ibn Mohammad Ibn Ismail Al-Tha’alibi. Imprimerie nationale, Paris: 1900, p.642-643 .

[2] Yenə orada: p.659.

[3] Yenə orada: p.659.

[4] Yenə orada: p.660-661.

[5] Zotenberg H. Histoire des Rois des Perses par Abou Mansour ‘Abd Al-Malik Ibn Mohammad Ibn Ismail Al-Tha’alibi. Imprimerie nationale, Paris: 1900, p.738.

həm Rüstəmin ordusunu, həm də digər Sasani qoşunlarını darmadağın etdilər[1].

II yarımfəsil **"Azərbaycanda dini-ictimai hərəkatlar"** adlanır. Sasanilər dövlətində, o cümlədən Azərbaycanda iqtisadi, siyasi və ictimai istismar burada əkinçilərin və maldarların rəsmi hakimiyyətə qarşı çoxsaylı dini-ictimai hərəkatlarına səbəb olmuşdur. Bu etirazlar müxtəlif formalarda təzahür etsə də onların mahiyyəti eyni idi: ağır vergi sistemi, feodal istismarı, feodalların ara müharibələri, bu hallara qarşı ictimai narazılığa gətirib çıxarırdı.

Zərdüştilik təlimi, manilik, məzdəkilik ideologiyasının prinsipləri bir çox Şərq cəmiyyətlərinin ictimai-siyasi və dini həyatına ciddi təsir göstərmişdi. Azərbaycan da bu təsirdən, həmin təlimlərin xüsusiyyətlərinin və səciyyəvi cəhətlərinin nüfuz dairəsindən kənarda deyildi.

Əbu Mənsur əs-Sə`əlibinin əsəri Azərbaycanın zərdüştilik ənənəsində yerini erkən orta əsr mənbələrinə istinadən kifayət qədər ətraflı şəkildə əks etdirir. Əs-Sə`əlibi təsdiq edir ki, ən məşhur od məbədlərindən biri (Adurquşnasp) Azərbaycanda yerləşirdi. Bu məbəd ərəb coğrafiyaçıları və tarixçiləri tərəfindən dəfələrlə xatırlanır. Əsərdə "zərdüştilik təlimini yaşadıqları bölgələrdə yaymış çoxsaylı kahinlərin əslən Azərbaycandan olduğu" da qeyd edilir[2].

Ərəbdilli coğrafiyaçılar və tarixçilər tərəfindən dəfələrlə xatırlanan Adurquşnasp məbədi Nizami Gəncəvinin "İsgəndərnamə" poemasının "Şərəfnamə" hissəsində də ətraflı şəkildə təsvir olunmuşdur.

Əbu Mənsur əs-Sə`əlibinin əsərində "Zərdüştün vətəninin Azərbaycan olduğu" haqqında məlumat verilir: "İbn Xordadbehə görə, Zərdüşt Mənüçöhrün nəslindəndir və əslən Muğandan - Azərbaycan ölkəsindən idi. Həmin müəllif qeyd edir ki, onun gətirdiyi kitab Allahın şərəfinə oxunan himnlərdən və dualardan, uzaq keçmişdə baş vermiş hadisələrdən, gələcək haqqında xəbərldarlıqdan, qanunlardan və göstərişlərdən ibarət idi"[3].

III əsrdə Yaxın və Orta Şərqin bir çox ölkələrində olduğu kimi, Azərbaycanda da manilik hərəkatı yeni vüsət almışdı. Özündə zərdüştiliyin, xristianlığın və buddizmin ayrı-ayrı ünsürlərini birləşdirmiş bu dini təlim həmin dövrdə bir çox insanların düşüncəsinə nüfuz etmişdi.

---

[1] Bünyadov Z. Azərbaycan VII-IX əsrlərdə. Bakı: Şərq-Qərb, 2007, s.90-91.
[2] Zotenberg H. Histoire des Rois des Perses par Abou Mansour 'Abd Al-Malik Ibn Mohammad Ibn Ismail Al-Tha'alibi. Imprimerie nationale, Paris: 1900, p.256-258.
[3] Zotenberg H. Histoire des Rois des Perses par Abou Mansour 'Abd Al-Malik Ibn Mohammad Ibn Ismail Al-Tha'alibi. Imprimerie nationale, Paris: 1900, p.257.

Manilik ideyalarının təsirindən doğmuş Məzdək hərəkatı həyata yeni dini təlimi-məzdəkiliyi gətirmiş, cəmiyyətin əsaslarını sarsıdan bir hərəkata səbəb olmuşdur.

Məzdək hərəkatı III-VII əsrdə Yaxın və Orta Şərqdə, o cümlədən Azərbaycanda ən irimiqyaslı hərəkatlardan biri olmuş, zəhmətkeşlərin Sasani imperiyasında tüğyan edən ağır istismara, vaxtaşırı baş verən müharibələrə, təbii fəlakətlərə, sosial zülmə cavabı kimi baş vermişdir.

Qeyd etmək lazımdır ki, zərdüştilik və manilik kimi, məzdəkilik təlimi də gələcəkdə Azərbaycanın, Ön Asiyanın ideoloji, siyasi həyatına böyük təsir göstərmiş, bir çox sosial, siyasi, dini etiraz çıxışlarının, azadlıq hərəkatlarının, dini təriqətlərin ideoloji mübarizə vasitəsinə çevrilmişdir.

Dissertasiya isinin III fəsili **"Sasanilərin köçürmə siyasəti və Azərbaycanın qonşu ölkələrlə əlaqələri Əbu Mənsur əs-Sə`əlibinin "Ğurar əxbar muluk əl-furs va siyarihim" əsərində"** adlanır. Sasani şahənşahları Azərbaycanda da məqsədyönlü köçürmə siyasəti yeridirdilər. Bu siyasət nəticəsində Azərbaycan ərazilərində əsasən Deyləm, Gilan və Mazandaran vilayətlərindən olan irandilli qəbilələr, tayfalar yerləşdirilirdi. Sasani hökmdarları bu siyasətlə kifayət qədər münbit torpağı olmayan irandilli tayfaları işğal olunmuş ərazilərdəki münbit torpaqla təmin etmək, imperiyanın şimal ərazilərində Sasani dövlətinin təhlükəsizliyinə kömək etmək məqsədlərini gerçəkləşdirməyə çalışırdılar.

Köçürülmüş farsdilli əhali Azərbaycanda imperiyanın hakimiyyətini gücləndirməli, Şimali Qafqazdan daxil olan köçəri tayfalara, itaətsizlik edən yerli əhaliyə qarşı çıxış etməli, ən pis halda isə neytral mövqe tutmalı, zərdüştiliyin yayılmasına şərait yaratmalı idi.

Yaqut əl-Həməvi bu barədə yazmışdır: "Bu diyarın əhəmiyyətinə görə Sasani şahları ona çox göz qoyur və şimal tayfalarının basqınlarından qorxu çəkərək oradakı bütün işləri diqqətlə izləyirdilər. Buna görə dəhəmin diyarı müdafiə etmək üçün bir sıra ölkələrdən köçürülüb gələn və şahların inandıqları adamlar buraya qarovul qoyulmuşdular"[1].

Məlumdur ki, tarixi Azərbaycan şimalda Dərbənd, cənubda Həmədan, şərqdə Xəzər dənizi və qərbdə Kiçik (Ön) Asiya ilə əhatələnən bir ərazini əhatə edir.

Ərəbdilli tarixçi ət-Təbərinin məlumatına görə, "Azərbaycan sərhəddinin başlanğıcını Əhər və Zəngan (Zəncan) daxil olmaqla Həmədan,

---

[1] Azərbaycan tarixi üzrə qaynaqlar / S.S. Əliyarlının redaktəsi ilə. Bakı: Çıraq, 2007, s.167.

sonunu isə Dərbənd hesab edirlər və bu ərazidə olan on-on iki şəhəri "Azərbaycan" adlandırırlar"[1].

N.M.Vəlixanlı Sasani şahənşahlarının Azərbaycanda şəhərsalma siyasətinin səbəblərinə toxunaraq yazır: "Əlbəttə, Sasanilərin öz şimal sərhədlərini möhkəmləndirmək naminə gördükləri quruculuq işləri bir çox qala və şəhərlərimizi düşmən təhlükəsindən qoruya bilmişdi. Lakin arxeoloji tədqiqatlaradları çəkilən bir sıra yaşayış yerlərinin salınma tarixini daha qədim dövrə aparıb çıxarır. Ona görə də Qubadın və oğlunun yeni şəhərsalma fəaliyyətindən daha çox "bu yerləri abad etməsindən və yenidən qurmalarından", "müdafiə qabiliyyətlərini möhkəmlətmələrindən", qala və sədlərin yenidən qurmaları və tikmələri ilə yanaşı, "köhnələrini də təkmilləşdirmələrindən" danışmaq daha düzgün olardı[2].

IX-XI əsrlərin ərəbdilli müəllifləri (İbn Xordadbeh, Əl-Bəlazuri, əl-Yaqubi və Əbu Mənsur əs-Sə`əlibi) Qubadın və I Xosrov Ənuşirəvanın tikdirdiyi yeni şəhərlər və qalalar haqqında məlumat vermişlər [3].

Ərəbdilli mənbələrdə məlumat verilir ki, Bab əl-Əbvab I Qubad tərəfindən inşa edilmiş, bu şəhər onun dövründə möhkəmləndirilmişdir. Bu məlumatlara İbn Xordadbehin əsərində də təsadüf olunur. Əl-Məsudi isə qeyd edirki: "Bab əl-Əbvab və onun istehkamları haqqında xeyli məlumatlar mövcuddur. Onları Qubad ibn Firuz, Ənuşirəvanın atası "Maskat" adlanan yerdə tikdirmişdir.Bu, daşdan tikilmiş şəhərdir. O, Şirvanda müdafiə divarları da tikdirmişdir. Bu divarlar "gil divarları" kimi məşhurdur. Bərdə ətrafında isə daş divarlar çəkilmişdir. Gildən olan divara gəlincə isə bu, Gilgilçay boyunca uzanan divardır və o, Xəzər dənizindən başlayaraq uzanıb gedir"[4]. Bu divarın daşdan olan davamı isə I Xosrov Ənuşirəvanın dövründə tikilib başa çatdırılmışdır. Belə bir məlumat da mövcuddur ki, I Xosrov Ənuşirəvan Şabran və Maskat şəhərlərini, sonra isə Bab əl-Əbvabı tikdirmişdir. Bununla yanaşı, o, Kür çayının cənubunda da bir çox şəhərlər və qalalar inşa etdirmişdir[5].

Mənbələrə istinadən deyə bilərik ki, I Qubad müasir Quba şəhərinin yerində"Firuz-Qubad" adlı bir şəhər də inşa etdirmişdi. Əbu Mənsur əs-Sə`əlibinin əsərində Sasani imperiyasının paytaxtı Mədain (Ktesifon)

---

[1] Fazili A. Azərbaycanın qədim və orta əsrlər tarixi İran tarixşünaslığında (III-VII əsrlər). Bakı: Elm, 1984, s.106.

[2] Vəlixanlı N.M. Ərəb Xilafəti və Azərbaycan. Bakı: Azərnəşr, 1993, s.64.

[3] Zotenberg H. Histoire des Rois des Perses par Abou Mansour 'Abd Al-Malik Ibn Mohammad Ibn Ismail Al-Tha'alibi. Imprimerie nationale, Paris: 1900, p.610.

[4] Пахомов Х.А. Крупные памятники Сасанидского строительства в Закавказье. ПИМКЛ. № 9-10. Москва:1933, с.40-42.

[5] Бакиханов А.А. Гюлистани – Ирам.Редакция, комментарии и указатели З.М. Буниятова. Баку: Элм, 1991, с.18.

şəhərinin yaxınlığında tikilmiş yeni şəhərlə bağlı məlumat var: " Ənuşirəvan Antioş (Antioxiya) və onun binaları xoşuna gəldiyinə görə öz katibini Mədainə göndərdi və əmr etdi ki, Mədainin qonşuluğunda Bizans şəhəri Antioşun (Antioxiyanın) quruluşunda şəhər salınsın, küçələr, evlər, meydanlar, abidələr tam eyni ölçüdə olsun ki, bu şəhərləri (Antioxiyanı və onun saldırdığı yeni şəhəri – A.Ş.) bir-birindən fərqləndirmək, ayırmaq mümkün olmasın. Bu məqsədlə o, katibə tikinti materialı, mərmər və Antioşda olan hər şeyi verdirdi. Ənuşirəvan yunan fəhlələrini, sənətkarları, xüsusi məsləhətçiləri onun ixtiyarına verdi ki, onlar fars (Sasani – A.Ş.) fəhlələri ilə birlikdə yeni şəhərin salınmasında, hasara alınmasında və bəzədilməsində iştirak etsinlər. İşlər başa çatdıqda adama elə gəlirdi ki, yeni şəhər Antioşun (Antioxiyanın) özüdür. Ənuşirəvan bu yeni şəhəri "Rumiyya" adlandırdı"[1].

Əbu Mənsur əs-Sə`əlibi onu da qeyd edir ki, "Mədaində Ənuşirəvan tərəfindən tikdirilmiş saraya gəldikdə, bəzi mənbələrdə onun Xosrov Pərviz tərəfindən davam etdirilərək başa çatdırıldığı qeyd olunur"[2].

Erkən orta əsr müəlliflərinin əsərlərində xatırlanan Azərbaycan şəhərlərindən biri də Qazaka (Kanzak) şəhəridir. Bu şəhər ərəb fəthləri dövründən etibarən "Cənzə" və yaxud "Şiz" adlanmışdır. İbn Xordadbeh Şiz şəhərini "Azərbaycanın ən görkəmli şəhərlərindən biri" hesab edir, onu"Xosrov Pərvizin şəhəri" adlandırırdı[3]. Cənzə şəhərindən bəhs edən İbn Fəqih Azərgəşəsb məbədinin Şizdə (Qazakada) olduğunu qeyd etmişdir[4].

Yaqut əl-Həməvi Zərdüştün doğulduğu ehtimal olunan şəhər barədə məlumat vermişdir: "Şiz Azərbaycanın vilayətlərindən biridir. Şiz yerli "Cis"sözünün ərəbləşmiş şəklidir. Deyirlər ki, oda sitayiş edənlərin peyğəmbəri Zərdüşt əslən bu yerdəndir. Həmin yerin ən böyük şəhəri Urmiyadır. Urmiya Azərbaycanın böyük və qədim şəhəridir. Onunla eyniadlı göl arasında təxminən 3-4 fərsəng məsafə var. Bəzilərinin də qeyd etdiyi kimi, bura oda sitayiş edənlərin peyğəmbəri Zərdüştün (Zaratuştranın, Zoroastrın – A.Ş.) vətənidir. Burada şərqdə və qərbdə odpərəstlərin odlarını yandıran məbəd vardır[5].

---

[1] Zotenberg H. Histoire des Rois des Perses par Abou Mansour 'Abd Al-Malik Ibn Mohammad Ibn Ismail Al-Tha'alibi. Imprimerie nationale, Paris: 1900, p.612-613

[2] Yenə orada: p.614.

[3] Fazili A. Atropatena e.ə. IV – e.VII əsri. Bakı: Azərbaycan EA Tarix İnstitutu, 1992, s.83.

[4] Yenə orada: s.83.

[5] Йакутал-Хамави. Муджам ал-булдан (Сведения об Азербайджане)/Пер. с арабского З.М. Буниятова и П.К. Жузе. Баку: Элм, 1983.

Sasani dövründə Azərbaycan ərazisində (xüsusilə şimali Azərbaycanda)müdafiə istehkamları, çoxsaylı şəhərlər inşa edilmişdir. Azərbaycanda tikilmiş bu istehkamlar, müdafiə qurğuları,salınmış şəhərlər ölkənin tarix boyu çox mühüm bir bölgə olduğunu təsdiqləyir.

II yarımfəsil **"Azərbaycanın qonşu ölkələrlə əlaqələri"** adlanır. III-VII əsrlərdə Azərbaycan Ön Asiyanın Qafqazda maraqları olan üç imperiyanın (Bizans, Sasani və Xəzər xaqanlığı-A.Ş.) hərbi-siyasi çəkişmələrinin mərkəzinə çevrilmişdi. Həmin dövlətlər bu bölgə uğrunda uzunmüddətli mübarizədə olmuşlar. Onlar bu bölgəyə sahib olmağa, onu nəzarətdə saxlamağa, Cənubi Qafqazın hərbi-siyasi və iqtisadi, ticarət potensialından siyasi və strateji maraqları üçün istifadə etməyə can atırdılar. Buna görə də həmin dövlətlərin qarşılıqlı əlaqələri daha çox hərbi-siyasi səciyyə daşıyırdı. Həmin münasibətlərdə, əlaqələrdə iqtisadi, ticari və mədəni səciyyəli əlaqə faktları tapmaq çox çətindir.

Əbu Mənsur əs-Sə`əlibi I Xosrov Ənuşirəvanın dövründə Sasani dövlətinin idarəetmə sistemi, şahənşahın qonşu dövlətlərlə münasibətlərinə geniş yer vermişdir: "Xosrov Ənuşirəvan bütün şahlardan ən xoşbəxti və ağıllısı, ən yüksək düşüncəlisi, ən ədalətlisi, əsil-nəcabətlisi, ən bəxtəvəri idi. O, hakimiyyəti çox ağır bir məqamda, Məzdəkilər üsyanının geniş vüsət aldığı bir zamanda ələ aldı və əyanları, məmurları bir yerə toplayıb birbaşa vacib məsələlərin həllinə başladı"[1].

VII əsrdən etibarən Alban dövlətinin daxili siyasi müstəqilliyinin güclənməsi onun Cənubi Qafqazda siyasi mövqelərini möhkəmləndirdi. Bu dövrdə Böyük Alban knyazlığı üçün əsas təhlükə iki tərəfdən idi: şimalda – Dərbənd keçidindən ölkəyə hücum edən xəzərlər; cənubda və cənub-qərbdə Bizans və Sasani hərbi-siyasiqarşıdurması. Çünki onların Cənubi Qafqaz uğrundakı mübarizəsi əsasən Azərbaycan ərazisində baş verirdi.

Azərbaycan Sasani imperiyasının Şimal canişinliyində mühüm strateji mövqe tutur, imperiyaya daxil olan yolları şimalda xəzərlərdən, qərbdə Bizansdan qoruyurdu. Xəzərlər Arrana və Azərbaycana daha tez-tez basqın edirdilər. Buna görə də Sasani şahənşahları öz imperiyasının sərhədlərini möhkəmləndirməyə müstəsna əhəmiyyət verirdilər.

Bu dövrdə Qafqazda mühüm hərbi-strateji mövqeləri tutmuş, Sasani və Bizans imperiyaları üçün təhlükə yaradan köçəri tayfaların cənuba yolunu kəsmək üçün bəzən bu rəqib dövlətlər arasında "şimal tayfalarına qarşı hərbi-siyasi əməkdaşlıq" da müşahidə olunmuşdur.

---

[1] Zotenberg H. Histoire des Rois des Perses par Abou Mansour 'Abd Al-Malik Ibn Mohammad Ibn Ismail Al-Tha'alibi. Imprimerie nationale, Paris: 1900, p.603-604.

Bununla yanaşı, Bizans və Sasani dövlətlərinin başçıları Xəzər Xaqanlığını, cəngavər Şimali Qafqaz tayfalarını ya neytrallaşdırmağa, ya da öz məqsədlərinə çatmaq üçün onlardan bir vasitə kimi istifadə etməyə çalışırdılar[1].

Bizansa qarşı hərbi yürüşdən qayıdan I Xosrov Ənuşirəvan 562-ci ildə xəzərlərlə döyüşüb onları məğlub etdi. Əbu Mənsurəs-Sə`əlibi əsərinin "Anuşiravanın digər yürüşləri" sərlövhəli hekayətində yazmışdır: "Ənuşirəvan Rum ölkəsindən qayıtdıqdan sonra xəzərlərə qarşı yürüş etdi və onların üzərində üstünlük qazandı. O, sonra Ədənə yönəldi və Abissiniyaya (Efiopiyaya – A.Ş.) daxil oldu, sonra isə Mədainə qayıtdı. O, Rum ölkəsi əyalətlərinin Herakl tərəfdəki hissələrini, "Ərminiyyə"dən tutmuş Xəzər ölkələrinədək ərazini işğal etdi. Belə ki, o, iki mahal və dəniz arasındakı ərazini, yəni Ədən əyalətini ələ keçirdi[2].

20 illik Bizans-Sasani müharibəsi (571-591) dövründə bizanslılar Albaniya ərazisinə daxil olanda burada sabirlərlə qarşılaşmış, "onlara qarşı çıxmayacaqları təminatını" almaq üçün sabirlərdən girov əsirlər götürmüşdülər. Bizans qoşunları Albaniyanı tərk edən kimi sabirlər Sasanilərin tərəfinə keçdilər[3].

Yeni Bizans-Sasani müharibəsi (603-628-ci illərdə) gedişində Azərbaycan əhalisi yenidən çətinliklərlə üzləşdi. Bizans imperatoru bu müharibə zamanı Konstantinopola qədər gəlib çıxmış xəzərlərdən fəal şəkildə istifadə edirdi.

627-ci ildə Azərbaycana xəzərlərin və onlarla müttəfiq olan Şimali Qafqaz köçəri tayfalarının böyük dağıntılarla nəticələnən silsilə yürüşləri başlandı. Moisey Kalankaytuklu qeyd etmişdir: "Cebuxaqan öz oğlu ilə yuruşə çıxmışdı. Heç kəs onun ordusunun say-hesabını bilmirdi"[4]. Ilk zərbə Dərbəndə dəydi[5].

628-ci ildə xəzərlər Azərbaycana ikinici dəfə yürüş etdilər.Bu yürüşə xaqanın oğlu Şat rəhbərlik edirdi. Onlar Albaniya ərazisini ələ keçirdikdən sonra Tiflisə doğru hərəkət etdilər, Bizans imperatoru İraklinin ordusu ilə birlikdə şəhəri mühasirəyə aldılar. Tiflisin ikinci mühasirəsindən sonra

---

[1] Kalankatlı Moisey. Albaniya tarixi /Müqəddimə, tərcümə, qeyd və şərhlər akademik Ziya Bunyadovundur. Bakı: 1993, s. 76.; Məmmədova F.C. Azərbaycanın (Albaniyanın) siyasi tarixi və tarixi coğrafiyası). Bakı: ADN, 1993, s.188.

[2] Zotenberg H. Histoire des Rois des Perses par Abou Mansour 'Abd Al-Malik Ibn Mohammad Ibn Ismail Al-Tha'alibi. Imprimerie nationale, Paris: 1900, p.614-615.

[3] Məmmədova F.C. Azərbaycanın (Albaniyanın) siyasi tarixi və tarixi coğrafiyası). Bakı: ADN, 1993, s.188-189.

[4] Kalankatlı Moisey. Albaniya tarixi /Müqəddimə, tərcümə, qeyd və şərhlər akademik Ziya Bunyadovundur. Bakı: 1993, s.96.

[5] Yenə orada: s.96.

şəhər işğal edildi. Bundan sonra Bizans ordusu Cənubi Qafqaz ölkələrini özünə tabe etdi. Bu zaman(628-ci il) Sasani hökmdarı II Xosrov Pərviz öldürüldü. 628/629-cu ildə Bizans imperiyası ilə sülh bağlayan, II Xosrovun tutduğu torpaqları "Rum imperatoruna" qaytaran II Qubad Sasani taxtına sahib oldu[1].

Ərəblərin Sasani imperiyasına hərbi yürüşləri dövründə Azərbaycanın cənub hissəsi tamamilə işğal edilsə də, Albaniya dövləti Cavanşirin uzaqgörən siyasəti sayəsində bir müddət daxili siyasi müstəqilliyini qoruyub saxlaya bildi.

Dissertasiyanın **"Nəticə"** hissəsində tədqiqatın gedişində əldə olunmuş əsas elmi-nəzəri qənaətlər sistemləşdirilərək ümumiləşdirilmişdir.

**Dissertasiyanın əsas məzmunu müəllifin nəşr edilmiş aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır:**

1.Əbu Mənsur əl-Hüseyn ibn Məhəmməd ibn İsmayıl əs-Sə`əlibinin həyatı və yaradıcılığı (961-1038) //Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutu Elmi əsərlər, 41-43-ci cild. Bakı: 2012, s.24-32.

2.Misir tarixçisi İbn İyas və onun "Bada`i az-zuhur fi vaqa`i ad-duhur"("Güllərin bənzərsizliyi əsrin hadisələrində") əsəri Səfəvi dövləti tarixinin öyrənilməsi üçün mənbə kimi //Tarix və onun problemləri, Bakı: 2013, №1, s.255-258.

3.Учение зороастризма, манихейства, маздакизма и их влияние на Азербайджан //Гілея, Науковий вісник, Збірник наукових праць, Київ: 2013, Випуск 79 (№12), с.129-131.

4. Доисламские верования в Азербайджане по произведению ас-Саалиби //Doktorantların və gənc tədqiqatçıların XVIII respublika elmi konfransının materialları. I cild. Bakı: 2013, s.375-377.

5.Əbu Mənsur əl-Hüseyn ibn Məhəmməd əs-Sə`əlibinin "Ğurar əxbar muluk əl-furs va siyarihim" ("Fars şahları və onların həyatı haqqında seçilmiş məlumatlar") əsəri haqqında //Azərbaycanın görkəmli şərqşünas alimi, professor Aida İmanquliyevanın 75 illik yubileyinə həsr olunmuş "Şərqşünaslığın aktual problemləri" mövzusunda respublika elmi konfransının materialları. Bakı: 2014, s.244-246.

6.Azərbaycanda ərəblərə qarşı müqavimət hərəkatı. Rüstəm əl-Azəri //Pedaqoji Universitet xəbərləri. Bakı: 2014, №2, s.210-214.

7.О некоторых аспектах деятельности Бахрама Чубина (по произведению ас-Саалиби «Гурар ахбар мулюк ал-фурс ва

[1] Azərbaycan tarixi. 7 cilddə. II cild (III-XIII əsrin I rübü), Bakı: Elm, 2007, s.153-154.

сийарихим» («Отборные сообщения о царях персов и их жизнеописаниях»)) //Кавказ и мир (Международный научный журнал). Тбилиси: 2014, № 17, с.186-189.

8.Orta əsrlər Azərbaycanında şəhər və müdafiə istehkamlarının qurulması məsələsinə dair (əs-Sə`əlibinin əsəri əsasında) //Tarix və onun problemləri, Bakı: 2014, №2, s.348-352.

9. Əs-Sə`əlibinin "Ğurar əxbar muluk əl-furs va siyarihim" ("Fars şahları və onların həyatı haqqında seçilmiş məlumatlar") əsərində zərdüşt və zərdüştlük haqqında məlumatlar //Azərbaycanşünaslığının aktual problemləri Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş VI Beynəlxalq elmi konfransın materialları, II hissə, Bakı: 5-7 may 2015-ci il, s.432-434.

10.III-VII əsrlərdə Azərbaycanın siyasi vəziyyəti Əbu Mənsur əs-Sə`əlibinin "Ğurar əxbar muluk əl-furs va siyarihim" əsərində //Elmi xəbərlər (Fundamental, humanitar və təbiət elmləri seriyası). Gəncə: 2016, №3, s.247-251.

11. II Xosrov Pərvizin öldürülməsi və Şiruyənin hakimiyyətə gəlişi Əbu Mənsur əs-Sə`əlibinin "Ğurar əxbar muluk əl-furs va siyarihim" əsərində //Pedaqoji Universitetin xəbərləri, Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası. Bakı: 2017, C.65, №1, s.165-172.

**А.Я.Ширалиева**

# ТРУД АБУ МАНСУРА АЛЬ-ХУСЕЙНА ИБН МУХАММЕДА АС-СА`АЛИБИ «ОТБОРНЫЕ СООБЩЕНИЯ О ЦАРЯХ ПЕРСОВ И ИХ ЖИЗНЕОПИСАНИЯХ» КАК ИСТОЧНИК ПО ИЗУЧЕНИЮ РАННЕЙ СРЕДНЕВЕКОВОЙ ИСТОРИИ АЗЕРБАЙДЖАНА

## РЕЗЮМЕ

В средневековых источниках имются ценные факты об исторической территории Азербайджана, о его границах, этнической принадлежности и составе населения, политическом и социально-экономическом положении. Среди этих источников труды мусульманских авторов отличаются особой значимостью. Представленная диссертация посвящена исследованию средневековой истории Азербайджана по произведению «Гурар ахбар мулюк ал-фурс ва сийарихим» Абу Мансура ас-Са`алиби. Диссертация состоит из введения, трех глав, заключения и списка использованной литературы.

Во введении обосновываются актуальность темы, ее изученность, определяются объект, цели и задачи исследования, характеризуются его научная новизна, методологическая и теоретическая основа, а также указывается практическое значение исследования.

В первой главе на основе трудов средневековых арабских ученых прослеживается жизненный путь Абу Мансура ас-Са`алиби и приводятся некоторые из его трудов. А также подробно рассматривается его историческое произведение «Гурар ахбар мулюк ал-фурс ва сийарихим», которое является объектом нашего исследования.

Во второй главе говорится об Азербайджане во время правления Сасанидов; о Зороастре и о распространении его учения; о войнах Бахрама Гура с тюркским хаганом на территории Азербайджана; о восстании Бахрама Чубина в Азербайджане; о сражениях арабов с войсками Азербайджана под командованием Рустама ал-Азери на основе произведения Абу Мансура ас-Са`алиби «Гурар ахбар мулюк ал-фурс ва сийарихим».

В третьей главе сконцентрированы сведения об административной деятельности Хосрова Ануширавана, о строительстве оборонительных сооружений и городов, а также о взаимоотношениях с соседними государствами.

В заключении подводятся общие итоги исследованию и делаются соответствующие выводы.

**A.Y.Shiraliyeva**

## ABU MANSUR AL-HUSSEIN IBN MOHAMMED AS-SA'ALIB'S "PERSIAN SHAHS AND THE SELECTED INFORMATION ABOUT THEIR LIVES (ĞURAR AKHBAR MULUK ƏL-FURS VA SIYARIHIM) WORK AS THE SOURCE OF EARLY MIDDLE-AGE HISTORY OF AZERBAIJAN

### SUMMARY

There are valuable facts about the historical territory of Azerbaijan, its borders, ethnic belonging and structure of population, political and social-economic situation in middle century sources. The works of Muslim scientists especially differ among these sources. The presented dissertation is dedicated to the investigation of Abu Abu Mansur as-Saalibi's work "Ğurar akhbar muluk əl-furs va siyarihim". The dissertation consists of an introduction, 3 chapters, conclusion and list of literature.

The topicality and its investigation level of research work is substantiated, its object, aims and duties is defined, its scientific novelty, methodological and theoretical bases is characterized and also the practical importance is indicated.

The life road of Abu Mansur as-Saalibi is looked over and some works are presented as an example. And also his historical work "Gurar akhbar muluk al-furs va siyarihim" which is our research object is broadly analyzed.

The information about Azerbaijan during the reign of Sasanis, Zardusht religion and spreading of its education, the war between Bahram Gur and Turkish Khakan in Azerbaijan territory, the revolt of Bahram Chubin in the territory of Azerbaijan, and the resistance movement headed by Rustam al-Azery against Arabs is scrutinized in this chapter.

In third chapter there is a lot of information about the administrative activity of Khosrov Anushiravan, the defend fortifications, the establishment of cities and also the relationship with neighbor states.

The research work is sum up with "conclusion" and corresponding results are reached.

Əla növ kağız, formatı 60x84 - $^{1}/_{16}$
Tirajı 100 nüsxə
TİKM

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ИСТОРИИ им. А.А.БАКИХАНОВА**

***На правах рукописи***

**АЙТАДЖ ЯШАР кызы ШИРАЛИЕВА**

# ТРУД АБУ МАНСУРА АЛЬ-ХУСЕЙНА ИБН МУХАММЕДА АС-СА`АЛИБИ «ОТБОРНЫЕ СООБЩЕНИЯ О ЦАРЯХ ПЕРСОВ И ИХ ЖИЗНЕОПИСАНИЯХ» («ГУРАР АХБАР МУЛЮК АЛ-ФУРС ВА СИЙАРИХИМ») КАК ИСТОЧНИК ПО ИЗУЧЕНИЮ РАННЕЙ СРЕДНЕВЕКОВОЙ ИСТОРИИ АЗЕРБАЙДЖАНА

**Специальность 5503.02 – Отечественная история**

# А В Т О Р Е Ф Е Р А Т

**диссертации на соискание ученой степени**
**доктора философии по истории**

**БАКУ- 2017**